QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 039 (6239) 2 mart 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Türkiyə KİV-ləri

### Prezident İlham Əliyevin mətbuat konfransından yazdılar


NTV #maskenitak Mesafeni Koru CANLI İZLE FOTO GALERİ VİDEO GALERİ
SON DAKİKA CORONA VİRÜS TÜRKİYE EKONOMİ DÜNYA YAŞAM astroloji SPOR
Haberler / Türkiye Haberleri / Erdoğan ve Aliyev'den Ermenistan'a mesaj
Erdoğan ve Aliyev'den Ermenistan'a mesaj
Cumhurbaşkanı Erdoğan ve İlham Aliyev görüşmelerinin ardından düzenlenen basın toplantısında konuştu. İki liderin de Karabağ üzerinden Ermenistan'a yönelik mesajları oldu. Aliyev, "Ermenistan asılsız iddialarından vazgeçerse iş birliği platformlarında yer alabilir" dedi. Erdoğan ise olumlu adımların atılması durumunda Türkiye'nin Ermenistan'a kapılarını açabileceğini söyledi.
Abone ol Google News Paylaş
ntv.com.tr 10.12.2020 - 17:54

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. "İki sahil" xəbər verir ki, mətbuat türkdilli ictimaiyyətə bununla...

Bax 5

## İgor Korotçenko: "Dövlət Dumasının yeni tərkibi Xocalı faciəsinin soyqırımı aktı kimi tanınması təşəbbüsünü irəli sürə bilər"



Elə cinayətlər var ki, onları unutmaq və bağışlamaq mümkün deyil. Xocalı faciəsi bunlardan biridir. AZƏRTAC xəbər verir ki, bu barədə "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko Moskvada, Xocalı faciəsinin qurbanlarının anma...

Bax 6

# Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*

Bax 3



## Bill Qeyts açıqladı: Koronavirus pandemiyası bu vaxt bitəcək



"Microsoft" kompaniyasının banisi Bill Qeyts koronavirus pandemiyasının bitmə vaxtı ilə bağlı proqnozunu açıqlayıb. CNN telekanalı xəbər yayıb ki, Bill Qeytsin fikrincə, dünya 2022-ci ilə qədər "normal vəziyyətə" qayıda bilər. "Problem ondadır ki, biz bütün planetdə pandemiyanın bitməsi üçün yetəri qədər səy göstərmirik", - deyə...

Bax 11

## Paşinyan Serj Sarkisyanı ordunu onun üzərinə qaldırmaqda ittiham etdi



Ermənistanın baş naziri Nikol Paşinyan hesab edir ki, silahlı qüvvələrin baş qərargah rəisinin onun istefası barədə bəyanatı sabiq prezident Serj Sarkisyanın təsirinin nəticəsidir. AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, Paşinyan bunu...

Bax 7

## Qarabağ erməniləri Azərbaycanda necə yaşayacaqlar?



Moskva-Baku.Ru platformasında Andrey Şlyapnikov müəllifi və aparıcısı olduğu "Diqqət mərkəzində" analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı formasında da oxucularımıza təqdim edirik.

Bax 15

### Sarkozi qandallandı



Bax 14

### "Heç bir siyasi lider medianın bu qədər səmərəli istifadə edə bilməyib"



Bax 6

### "Liverpul" tarixində 7000-ci qolunu vurdu!



Bax 16

# Yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi diqqət mərkəzindədir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ro-Pax” tipli “Akademik Zərifə Əliyeva” gəmi-bərəsinin suya salınması və eyni təyinatlı “Azərbaycan” gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər*

**Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı gəmiqayırma zavodunda “Ro-Pax” tipli “Akademik Zərifə Əliyeva” gəmi-bərəsinin suya salınması və eyni təyinatlı “Azərbaycan” gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə “Akademik Zərifə Əliyeva” gəmi-bərəsinin suya salınması mərasimində iştirak etdilər. Məlumat verildi ki, “Ro-Pax” tipli “Akademik Zərifə Əliyeva” gəmi-bərəsi “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunub. Prezident İlham Əliyev “Akademik Zərifə Əliyeva” gəmi-bərəsinin suya salınmasını bildirən düyməni basdı.

Birinci xanım Mehriban Əliyeva gəminin suya salınmasını bildirən rəmzi lenti kəsdi.

Qeyd edək ki, yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir və bu istiqamətdə atılan addımlar Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun həyata keçirilir. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC yaradılan vaxtdan bu günədək keçən 7 il ərzində 18 yeni gəmi istismara verilib. Son bir ilin pandemiya şəraitində keçdiyini nəzərə alsaq, dövlətimizin başçısının davamlı inkişafa yönələn iqtisadi strategiyasının miqyası daha aydın nəzərə çarpar.

X X X

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ro-Pax” tipli “Azərbaycan” gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etdilər.

Dövlətimizin başçısına və birinci xanıma “Azərbaycan” gəmi-bərəsi barədə məlumat verildi. Bildirildi ki, nadirliyi ilə seçilən bu layihə çərçivəsində ilk dəfə Xəzərdə yeni “Ro-Pax” tipli gəmi-bərələr istismara veriləcək.

Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən düyməni basdı.

Diqqətə çatdırıldı ki, istismara verilən gəmi-bərə sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyacaq. Bildirildi ki, 2013-cü ildən bəri donanmanın yenilənməsi istiqamətində aparılan işlər nəticəsində 18 yeni gəmi alınaraq istismara verilib.

Xatırladaq ki, bu gəmilərin hazırlanması əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətindən əldə etdiyi mənfəət hesabına maliyyələşir. Bununla da yerli bazara sərmayə yatırılmaqla, səhmdarı dövlət olan müəssisə kimi Azərbaycanda yerli gəmi tikintisi sənayesinin inkişafına və yeni iş yerlərinin yaranmasına töhfə verilir.

“Ro-Pax” tipli gəmilərin uzunluğu təxminən 155 metr, eni 18 metr, bortunun hündürlüyü isə 7,5 metrdir. Yükgötürmə qabiliyyətinə görə Xəzərdə hazırda mövcud bərələrdən böyükdür və 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR daşımaq imkanına malikdir. Hazırda Azərbaycan ərazisindən tranzit keçən avtotexnika və vaqonların Xəzər dənizində daşınmasını ümumilikdə 13 bərə və 6 Ro-Ro tipli gəmilər həyata keçirir. Onların hamısı “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin donanmasına məxsusdur və QSC bu gün Xəzərdə yeganə bərə operatorudur. Beləliklə, “Ro-Pax” tipli gəmi-bərələrin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olmaqla, Xəzərin şərq və qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirəcəyi, Azərbaycanın coğrafi mövqeyindən və tranzit potensialından daha səmərəli istifadəyə xidmət edəcəyi proqnozlaşdırılır.



















# Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*







**Martın 1-də Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub. AZƏRTAC xəbər verir ki, dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**

Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bu gününü və gələcəyini özündə birləşdirən "Suraxanı" tanker-muzeyinin yaradılması dövlətimizin başçısının dəstəyi ilə bu sahədə atılan növbəti mühüm addımdır. Muzey qismində "Suraxanı" tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub. Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib. Muzeyə gələn ziyarətçiləri kapitan və baş köməkçi qarşılayaraq, onları heyət üzvləri və vəzifələri barədə məlumatlandırırlar. Muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Məsələn, oyun manipulyatorları vasitəsilə yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək mümkündür. Həmçinin ziyarətçilər 360 dərəcəli ekranla nümayiş olunan videoda baş verənlərin birbaşa "iştirakçısı"na çevrilirlər.

Muzeydə dünyaca üç məşhur dəniz mayakının modelləri ilə tanış olmaq imkanı da var. Naviqasiya masasında ziyarətçilər Xəzərdə üzən gəmilərin marşrutu, xarici kommunikasiya və naviqasiyaları ilə tanışlıq fürsəti əldə edəcəklər. Burada keçmişə səyahət də mümkündür.

Ötən əsrin ortalarına səyahət edən ziyarətçilər gəminin maşın şöbəsində çalışan heyətin gündəlik iş həyatı ilə yaxından tanış olacaqlar. Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri də okean və dənizlərdən yığılan flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.

Tanker-muzeydə, həmçinin Böyük Vətən müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb. Muzeydə ümummilli lider Heydər Əliyevin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafına göstərdiyi misilsiz xidmətləri haqqında interaktiv kitab, Prezident İlham Əliyevin dənizçilik sahəsində həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən infomonitor var.

Maraqlı eksponatlarla zəngin tanker-muzey postpandemiya dövründə turistlərin ən çox üz tutacağı məkanlardan olacaqdır.

Dövlətimizin başçısına və birinci xanıma fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılan heykəltəraşlıq kompozisiyası barədə də məlumat verildi.











Bildirildi ki, əsərin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı isə Əməkdar memar Elxan Əsədovdur. Heykəltəraşlıq kompozisiyası dinamik fiqurlu dalğanı yaran gəmi pəri ilə təqdim edilib. Bu pər Xəzərdə gəmiçiliyin inkişafını simvolizə etməklə bərabər, həm də dənizçilərin enerji mənbəyi və həyatlarının ayrılmaz atributu kimi yaradılıb.

**Martın 1-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunan yeni inzibati binanın açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Yeni inzibati bina ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, müasir texnoloji sistemlərlə təchiz olunmuş binada beynəlxalq tələblərə cavab verən lokal informasiya texnologiyaları infrastrukturu, videokonfrans və rabitə sistemləri yaradılıb.

Burada ölkəmizdə dənizçilik peşəsinin qədimliyini əyani vasitələr, interaktiv təqdimatlarla ziyarətçilərə çatdıran "Üç əsrin şahidi" adlı muzey də yerləşir. Bu muzeyin yaradılmasında əsas məqsəd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin üç əsrə şahidlik edən şanlı tarixini bir araya gətirərək nümayiş etdirmək, tarixi eksponat və sənədləri konservasiya etmək və rəqəmsal formata çevirərək gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir. Binanın inşası zamanı həm eksteryerdə, həm də interyerdə dənizçilik rəmzlərindən geniş istifadə olunub. Binanın bütün otaqlarında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.



# Prezident İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin yeni inzibati binasının açılışında iştirak edib











TRT HABER

Aliyev: Ermenistan'da buhranlı vaziyet sürüyor

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Protestolar Ermenistan devletini son derece sarstı. Ermenistan'da buhranlı vaziyet sürüyor, prensip olarak hiçbir ülkenin dahili işlerine karışmıyoruz" dedi.

Basın toplantısı düzenleyen Aliyev, Dağlık Karabağ'da ateşkesi sağlayan 10 Kasım mutabakatı ile ilgili "Muharebenin sonuçları değişmeden kalacak, beyanatın büyük kısmı icra edildi. Ermenistan'da oluşan vaziyete rağmen süreç devam edecek. Aksi takdirde daha kötü duruma düşecek. Yeni gerçeklerle yüzleşmek zorundalar" açıklamasını yaptı.


NTV

Erdoğan ve Aliyev'den Ermenistan'a mesaj

Cumhurbaşkanı Erdoğan ve İlham Aliyev görüşmelerinin ardından düzenlenen basın toplantısında konuştu. İki liderin de Karabağ üzerinden Ermenistan'a yönelik mesajları oldu. Aliyev, "Ermenistan asılsız iddialarından vazgeçerse iş birliği platformlarında yer alabilir" dedi. Erdoğan ise olumlu adımların atılması durumunda Türkiye'nin Ermenistan'a kapılarını açabileceğini söyledi.

ntv.com.tr 10.12.2020 - 17:54

# Türkiyə KİV-ləri

## Prezident İlham Əliyevin mətbuat konfransından yazdılar


Yeni Şafak

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev: Türk ordusu bizim için en makbul model

**Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

"İki sahil" xəbər verir ki, mətbuat türkdilli ictimaiyyətə bununla bağlı məlumat çatdırıb. AZƏRTAC-ın məlumatına görə, bildirilib ki, dörd saatdan çox davam edən mətbuat konfransında 35 media mənsubunun 50-dən artıq sualını cavablandıran Prezident İlham Əliyev Xocalı soyqırımı, Qarabağ müharibəsi, Ermənistandakı vəziyyət, Azərbaycan-Türkiyə münasibətləri kimi mühüm məsələlərə aydınlıq gətirib.


A HABER

Azerbaycan Cumhurbaşkanı Aliyev'den Ermenistan açıklaması: Ülkede şu an buhran hakim

Son dakika haberi... Ermenistan'daki darbe girişiminin ardından Azerbaycan Cumhurbaşkanı İlham Aliyev basın mensuplarının sorularını yanıtladı. Cumhurbaşkanı Aliyev, "Ermensitan'da şu an buhran hakim" dedi.

Giriş Tarihi: 26.02.2021 10:12 Güncelleme Tarihi: 26.02.2021 14:38


AA

Azerbaycan Cumhurbaşkanı Aliyev: Türk ordusunun küçük modelini oluşturacağız

Anadolu və İHA xəbər agentlikləri, "TRT Haber", "Haber Türk", "A Haber", NTV telekanalları, "Yeni şafak", "Hurriyet", "Posta", "Milliyet" və digər qəzetlərdə yer alan informasiyalar videomaterial və orijinal fotolarla təqdim olunub.

Məlumatlar "Azərbaycan Prezidenti Əliyev: Azərbaycanda türk ordusunun kiçik modelini quracağıq", "Əliyevdən ordumuza böyük qiymət: Azərbaycanda türk ordusunun kiçik modelini quracağıq", "Azərbaycan Prezidenti Əliyevdən Ermənistandakı hərbi çevriliş cəhdi haqqında açıqlama!", "Azərbaycan Prezidenti İlham Əliyev: Türk ordusu bizim üçün ən məqbul modeldir", "Ərdoğan və Əliyevdən Ermənistana mesaj", "Azərbaycan Prezidenti Əliyevdən mühüm açıqlamalar" və sair sərlövhələrlə yayılıb.


Azerbaycan Cumhurbaşkanı Aliyev'den Ermenistan'daki darbe girişimi hakkında açıklamalar!

Son dakika... Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Ermenistan'ın 10 Kasım bildirisini uygulayacağını umuyorum. Aksi halde Ermenistan daha da ağır duruma düşecektir"

# “Azərbaycan meydana çıxa biləcək hər hansı təhdidlərin qarşısını qətiyyətlə almağa qadirdir”

“Möhtərəm Prezidentimiz İlham Əliyevin Xocalı soyqırımının 29-cu ildönümü günündə yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı çox mühüm məqamlarla yadda qalan böyük bir siyasi hadisə oldu. Mətbuat konfransında işğalçı Ermənistana və dünyaya ünvanlanan mesajlar bugünümüz üçün son dərəcə vacib məsələlərin aydın mənzərəsini yaratdı”. Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.



V.Rəhimzadə dövlətimizin başçısının keçirdiyi mətbuat konfransı ilə bağlı bir neçə mühüm məqamlara diqqəti yönəldərək bildirib ki, 10 noyabr üçtərəfli Bəyanatının imzalanması dünyaya Azərbaycanın hərbi və siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təqdimatıdır: “Bəyanatın imzalanmasından ötən müddətdə razılaşmanın bütün müddəaları icra olunmaqdadır. Sülhməramlıların yerləşdirilməsi, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması, 9-cu bəndə uyğun olaraq tərəflər arasında iqtisadi əlaqələrin qurulması, yeni əməkdaşlıq formatlarının yaradılması istiqamətində addımların atılması və sair mühüm məsələlər sırasındandır. Prezident İlham Əliyev mətbuat konfransında sülhməramlıların fəaliyyəti, onların mandatı, gördükləri və qarşıdakı beş ildə görəcəkləri işlərlə bağlı məqamları konkret fikirlərlə ifadə edərək hazırda sual doğuran məsələləri də cavablandırdı. Əcnəbi hərbçilərin regionda müşahidəçi olaraq qalması məsələsinə münasibət bildirən Prezident bildirdi ki, onların Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqəti xarakter daşıyır”.

Baş redaktor 10 noyabr Bəyanatının tələblərinə uyğun olaraq bölgədə Rusiya sülhməramlılarının fəaliyyətinin beş il müddətinə nəzərdə tutulduğunu önə çəkərək dövlətimizin başçısının mətbuat konfransında diqqət yönəltdiyi və bugünümüz üçün narahatlıq doğuran suallara da aydınlıq gətirdiyini diqqətə çatdırıb: “Prezidentin mətbuat konfransında sülhməramlıların fəaliyyəti ilə bağlı narahatlıq doğuran məsələlərə münasibətindən məlum oldu ki, hazırda Laçın dəhlizində Azərbaycanın suverenliyinin bərpa olunması, bütün sərhədlərin demarkasiyası və demilitasiyası, qaçqın və məcburi köçkünlərin geri qaytarılması və sair kimi məsələlər ciddi müzakirə mövzusudur. Dövlətimizin başçısı, həmçinin hələ də bəzi beynəlxalq dairələr tərəfindən tez-tez gündəmə gətirilən Dağlıq Qarabağın statusu məsələsinə də münasibətini açıqladı. Bildirdi ki, statusun ünvanı göstərilib. Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir”.

V.Rəhimzadə diqqəti son zamanlar ATƏT-in Minsk qrupunun vasitəçiliyinin yenidən gündəmə gətirilməsinə göstərilən cəhdlərə yönəldib: “Moskvanın əvvəllər Türkiyə, Azərbaycan, Rusiya və Ermənistan formuluna üstünlük verdiyi halda artıq bu gün ATƏT-in mandatından istifadə məsələsini qabartması təəssüf doğurur. Ermənistan və ona dəstək verən dövlətlər ilk gündən Türkiyənin bu proseslərdə iştirakının əleyhinə olublar və bu gün də bu yanaşma özünü göstərməkdədir. Azərbaycan həmişə dost, qardaş Türkiyəni yanında görüb, daim onun sülhyaratma prosesində iştirakının vacibliyini bildirib. Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması da deyilənlərin təsdiqidir. Azərbaycan tərəfi ümidvardır ki, Rusiya sülhməramlıları üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirəcək, bölgədə sülh, təhlükəsizlik təmin olunacaq, soydaşlarımızın işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı reallaşacaq. Bunun üçün işğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi əsasdır. Lakin, Ermənistanın xəritələri verməməsi bu prosesi uzadır. Düşünürük ki, bəzi məqamlarda mandatından istifadənin vacibliyi önə çəkilən ATƏT-in Minsk qrupunun həmsədrləri bu xəritələrin verilməsinə cəhdlər göstərməli, ərazilərimizin tez bir zamanda minalardan təmizlənməsinə dəstək olmalıdırlar”.

Baş redaktor bu məqamı da xüsusi qeyd edib ki, Azərbaycan Prezidenti perspektivlərdən bəhs etdiyi halda, Ermənistan tərəfinin bunun əksinə yönələn pozucu, aqressiv yanaşması rəsmi Yerevanın mənfur niyyətini açıq şəkildə nümayiş etdirir: “Əgər Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi ordularının müasirləşdirilməsi yolu ilə revanşizm mövqeyindən çıxış edirsə, artıq bu, onun təsdiqidir ki, 44 günlük İkinci Qarabağ müharibəsinin dərslərindən nəticə çıxarmaq istəmir. Eyni zamanda, hazırda işğalçı dövlətin yaşadığı siyasi böhran göz önündədir. Azərbaycanın illərdir Ermənistanı işğalçılıq siyasəti ucbatından bütün qlobal enerji layihələrindən təcrid vəziyyətə salması düşmən ölkənin iqtisadi böhran içərisində çapalaması ilə müşayiət olunur. Ermənistanın revanşist cəhdləri bir daha bu dövlətin təcavüzdən, düşmənçilikdən, nifaqdan uzaq olmaq istəmədiyini təsdiqləyir. Dünya bu kimi cəhdləri görüb susursa artıq geniş şərhə ehtiyac duyulmuruq. Ermənistan yenidən bu yolu tutarsa, ən acınacaqlı vəziyyəti yaşayacaq”. Vüqar Rəhimzadə Ermənistanın hansı addımları atmasına və ona havadarlıq edən dövlətlərin dəstəyinə baxmayaraq, Azərbaycanın hər zaman beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyini və ərazi bütövlüyünü təmin etməyə hazır, meydana çıxa biləcək hər hansı təhdidlərin qarşısını qətiyyətlə almağa qadir olduğunu bildirib.

# “Heç bir siyasi lider medianın imkanlarından bu qədər səmərəli istifadə edə bilməyib”

**“Bu vaxta qədər heç bir siyasi lider yumşaq güc adlandırılan medianın imkanlarından bu qədər səmərəli istifadə edə bilməyib. Prezident İlham Əliyev fevralın 26-da keçirdiyi mətbuat konfransında dünyanın nüfuzlu və aparıcı media qurumlarının diqqətinə bir daha Azərbaycan həqiqətlərini çatdırmaqla ölkəmiz haqqında qlobal informasiya məkanına obyektiv məlumatlar vermiş oldu.**

Hər şeydən öncə bu, Xocalı soyqırımı və onun dünyaya tanıdılması, eyni zamanda 44 günlük müharibədən sonra Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqlarla bağlı idi. Ümumiyyətlə, keçirilən mətbuat konfransı bir sıra ilklərlə yadda qaldı. İlk dəfə idi ki, bir lider bu qədər uzun müddətdə və 4 dildə dünyanın ən aparıcı media qurumlarının suallarını cavablandırırdı. Bir dildən digərinə keçid o qədər rəvan baş verirdi ki, bu media təmsilçilərinin də diqqətindən yayınmır, onların da yaxşı mənada təəccübünə səbəb olurdu”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, “Yeni Azərbaycan” qəzetinin Baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, əslində, bu hadisə sadəcə dil bilmək deyil, həm də media kimi universal bir alətin imkanlarından milli məqsədlər üçün istifadə etmənin yeni özünəməxsus forması idi: “Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi mətbuat konfransında eyni zamanda bu vaxta qədər yerli və xarici informasiya məkanında suallar doğuran bir sıra məsələlərə aydınlıq gətirdi. Onlardan biri hazırda sülhməramlıların nəzarəti altında olan ərazilərimiz qayıdış məsələsi idi. Azərbaycan Prezidenti Xocalıya da digər ərazilərimizə də



qayıdacağımızı bir daha qətiyyətlə ifadə etdi. İkinci məsələ böyük qayıdışla bağlı planların ardıcıl olaraq həyata keçirilməsi və onun hansı formada baş tutacağı idi. Aydın oldu ki, bununla bağlı Azərbaycanın dəqiq və düşünülmüş planı var və bu ardıcıllıqla mərhələli şəkildə həyata keçiriləcək”.

H.Babaoğlu vurğulayıb ki, başqa bir mühüm məsələ Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın regionumuza vəd etdiyi mühüm perespektivlərlə bağlı idi: “Bu kontekstdə Prezident İlham Əliyev regional və beynəlxalq tərəfdaşlarımıza da, Ermənistana da mühüm ismarıclar verdi. Bəlli oldu ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regionda əməkdaşlıq üçün yeni həm də tarixi fürsət yaradıb. Əgər bu fürsətdən doğru istifadə olunarsa, bütövlükdə regional və qlobal əməkdaşlıq baxımından olduqca əlverişli şərtlər yarada bilər. Yox, əgər Ermənistan yenə də revanşist cəhdlər edərsə, bu, 90-cı illərdə olduğu kimi, yenidən Ermənistanın özünütəcridinə gətirib çıxara bilər və nəticədə bu ölkə öz səhvlərini təkrar etməklə əməkdaşlıqdan kənarda qala bilər. Prezidentin fikirləri həm də bəzi ölkələrə bir çağırış idi. Bu çağırış ondan ibarət idi ki, əgər kimsə Ermənistanın olmayan ordusunu moderinizə etmək istəyirsə, bu, bu regiona yaxşı heç nə vəd edə bilməz. Ona görə də hazırkı mürəkkəb tarixi mərhələdə ən doğru yol yeni əməkdaşlıq imkanlarından keçir ki, Azərbaycanın məqsədi də elə budur”.

***Aysel Məmmədova***

## İqor Korotçenko: “Dövlət Dumasının yeni tərkibi Xocalı faciəsinin soyqırımı aktı kimi tanınması təşəbbüsünü irəli sürə bilər”



Elə cinayətlər var ki, onları unutmaq və bağışlamaq mümkün deyil. Xocalı faciəsi bunlardan biridir. AZƏRTAC xəbər verir ki, bu barədə “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko Moskvada, Xocalı faciəsinin qurbanlarının anma gecəsində vurğulayıb.

O deyib: “Misli görünməmiş qəddarlıq, məhvə məhkum edilən şəhəri tərk etməyə çalışan dinc sakinlərin, qaçqınların məqsədyönlü qətli onunla nəticələndi ki, qanlı qırğında 600-dən çox dinc sakin - qocalar, uşaqlar, xəstələr, yaralılar amansızlıqla, vəhşicəsinə məhv edildi. Bu əməlləri törədənlərə cəza verilməlidir. Hər şeydən əvvəl ondan ötrü ki, bizim həyatımızda və gələcək nəsillərin həyatında bu cür qorxunc əməllər bir daha heç vaxt təkrar olunmasın”.

İ.Korotçenko Dağlıq Qarabağ münaqişəsinin gedişində ermənilər tərəfindən törədilən cinayətlər üzrə beynəlxalq tribunal yaradılmasını təklif edib. Ekspert vurğulayıb: “Belə dəhşətli vəziyyəti biz dövrümüzdə də, İkinci Qarabağ müharibəsinin gedişində, Azərbaycanın münaqişə zonasından onlarca, yüzlərcə kilometr uzaqda yerləşən dinc şəhərlərinə raket zərbələri endirilən zaman da gördük. Bu planda Xocalı faciəsinə dair bütün sənədlər və faciənin başvermə səbəbləri beynəlxalq ictimaiyyət üçün maksimal şəkildə əlçatan olmalıdır. Belə əməllər nüfuzlu beynəlxalq təşkilatların tribunasından səslənən çıxışlarda da soyqırımı adlandırılmalıdır. Mən istisna etmirəm ki, Dövlət Dumasının yeni tərkibi (bizdə seçkilər sentyabrda keçiriləcək) Xocalı faciəsinin soyqırımı aktı kimi tanınması təşəbbüsünü irəli sürə biləcək”.

Korotçenko bildirib ki, insanlığa qarşı cinayətlərin iddia müddətləri yoxdur. Əgər cinayətkarların bu kateqoriyası müəyyən edilərsə, tutularsa və mühakimə edilərsə, o halda onların nə yaşı, nə də digər şərait cəzanı təxirə sala bilməz. Xocalıda dəhşətli cinayətləri törədənlərin axtarışı İnterpol xətti ilə aparılmalıdır. Ekspertin sözlərinə görə, Rusiya ictimaiyyəti və ekspertlər bu faciəli tarix barədə xatırlayırlar və bu faciənin dəyərləndirilməsində azərbaycanlı dostları ilə həmrəydirlər.

İ.Korotçenko AZƏRTAC-a müsahibəsində Ermənistanda bu gün baş verən hadisələrə qiymət verərək bəyan edib ki, Ermənistanda hakimiyyətə qisasçılar gələcəyi təqdirdə, ölkə dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalacaq. Yerevanda radikallar yenidən müharibə təbliğ edirlər və Ermənistanı tarixdə görünməmiş dərəcədə çıxılmaz vəziyyətə doğru sürükləyirlər. Ekspert deyib: “Azərbaycan və Türkiyə erməni xalqına kömək əlini uzadaraq kommunikasiyaların bərpa olunmasının, dinc həyatın qurulmasının zəruriliyini deyirlər. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən regiondakı bütün ölkələrin inkişafı üçün altıtərəfli iqtisadi proqram təklif olunub. Bu, hesab edirəm ki, həqiqətən tam düzgün və humanist siyasətdir”. Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici KİV-lər üçün Bakıda keçən mətbuat konfransı barədə danışan İ.Korotçenko vurğulayıb ki, dövlət başçısı mühüm anları səsləndirib. O, diqqəti ona çəkib ki, Azərbaycan müharibənin vurduğu yaraları ən qısa vaxtda sağaltmaq, vaxtilə işğal altında olan ərazilərin inkişafına yeni təkan vermək, Dağlıq Qarabağı Cənubi Qafqazın incisinə çevirmək niyyətindədir. İ.Korotçenko deyib: “Bir daha qeyd edim ki, regionda bütün sülh dəyişikliklərinin əsasına Azərbaycanın möhtəşəm hərbi qələbəsi sayəsində nail olunub və bu qələbə 2020-ci ilin beynəlxalq gündəliyində ən başlıca hadisəyə çevrilib”.

## “Prezidentin media konfransı Azərbaycanın dünyaya təkrar təqdimatı oldu”



“Prezident İlham Əliyevin canlı müsahibəsi vaxt baxımından unikal olduğu kimi, sualların çeşidi və mövzu müxtəlifliyi baxımından da yadda qaldı. Bu suallarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində planlaşdırılan quruculuq işlərindən başlamış, Cənubi Qafqaz regionunda və ümumilikdə dünyada cərəyan edən proseslərə münasibətə qədər ən müxtəlif mövzulara toxunuldu”. Bunu Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərli “Səs” qəzetinə açıqlamasında bildirib. Qeyd edib ki, Prezident bütün bu suallara əhatəli, qaneedici cavablar verdi, bu proseslərdə Azərbaycanın yeri, rolu barədə təsəvvür formalaşdırdı: “Bəlli oldu ki, Azərbaycanın bütün məsələlərə baxışı sülh kontekstində, humanist yanaşmadır, inkişafa köklənib. Belə yanaşma dünyada həm dövlətimiz, həm də xalqımız barədə düzgün təəssürat yaradır. Qısa olaraq demək olar ki, Prezident son media konfransı Azərbaycanın dünyaya təkrar təqdimatı oldu. Dünyada cərəyan edən aktiv siyasi proseslər fonunda belə təqdimata ciddi zərurət var idi”.

***Gülyana***

# Azərbaycanın BMT-yə üzv olmasından 29 il ötür



**Azərbaycan bir çox beynəlxalq təşkilatlarla yanaşı, Birləşmiş Millətlər Təşkilatına da üzv olub. BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilmiş 46-cı sessiyasında Azərbaycanın bu təşkilata üzv olması ilə bağlı qətnamə qəbul edilib. BMT-nin Nyu-Yorkdakı iqamətgahı qarşısında təşkilatın 181-ci üzvünün - Azərbaycanın dövlət bayrağı qaldırılıb.**

1992-ci il martın 6-da Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin fəaliyyətə başlaması ölkəmizin bu qurum ilə əməkdaşlığının qurulmasına əlverişli imkan yaradıb. Həmin ilin noyabrında isə, BMT-nin ölkəmizdə daimi nümayəndəliyi açılıb. Azərbaycanın BMT yanında daimi nümayəndəliyi, qısa müddətdə həm təşkilat, həm də onun ixtisaslaşdırılmış qurumları ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlıq qurub.

Əlbəttə ki, dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycan müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoyaraq beynəlxalq aləmdəki mövqeyini artıraraq, beynəlxalq əlaqələri möhkəmlətməyə önəm verdi. Təbii ki, Azərbaycan qarşıya çıxan bir sıra mühüm problemlərin, ilk növbədə, dövlət müstəqilliyinin qorunub-saxlanılması və möhkəmləndirilməsi, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və s. proseslərdə bu qarşılıqlı əlaqə və münasibətlərə xüsusi olaraq diqqət ayırdı. Qısa müddət ərzində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti, NATO və başqa beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı. Beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini və həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə edilməsi zəruridir. Bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və s. sahələri əhatə edərək, çoxşaxəli xarakter daşıyır və Azərbaycanın maraqlarının daha dolğun ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlər qarşılıqlı əlaqələrin möhkəmlənməsinə mühüm təsir göstərir.

Azərbaycanın BMT-yə üzv kimi qəbul olunması Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsi və dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması istiqamətində vacib rol oynayıb. 1992-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatında, eləcə də, qurumun 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilib. İşğalçı ölkənin silahlı qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəsin təmini və münaqişənin danışıqlar yolu ilə həlli tələb edilib. Azərbaycanın BMT-yə üzv olması yenicə müstəqilliyini bərpa etmiş bir ölkə üçün dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin qurulmasında, xalqımızın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında önəmli rol oynayıb. Qarşılıqlı səfərlərin və görüşlərin keçirilməsi də Azərbaycanın BMT ilə münasibətlərinin inkişafına töhfəsini verib. Əməkdaşlığın dərinləşməsində BMT-nin Baş Katibi Butros Qalinin 1994-cü ilin oktyabrında Bakıya səfəri mühüm rol oynayıb. Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə yaxından tanış olan Butros Qali mövcud problemlərin həllində ölkəmizə dəstək vermək üçün BMT-nin müxtəlif təsisatlarının səylərini artıracağını bildirib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bir neçə dəfə BMT Baş Məclisinin iclaslarında iştirak edib, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmiz ilə bağlı, xüsusilə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırıb. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı Baş Məclisdə keçirilən xüsusi təntənəli iclasda iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlayıb, xüsusilə, Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırıb.

BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan edib və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürüb. Eyni zamanda, dövlətimizin başçısı bildirib ki, təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniştərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir.

Azərbaycanın BMT-nin ixtisaslaşmış qurumları ilə də səmərəli əməkdaşlığı mövcuddur. Ölkəmizin BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqələri siyasi, iqtisadi, sosial, humanitar, təhsil, elm və mədəniyyət sahələrində həyata keçirilir. 2011-ci il oktyabrın 24-də Azərbaycanın həyatında çox əlamətdar və tarixi hadisə baş vermişdir. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilmişdir. Gərgin şəraitdə keçən və bir neçə turdan ibarət səsverməda 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək, ölkəmizi bu mötəbər təşkilata üzv seçmişdir. Prezident İlham Əliyev bu əlamətdar hadisə münasibətilə bəyanatında demişdir: "Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".

Dövlət başçısı BMT Baş Assambleyasının sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Cənab Prezident Qoşulmama Hərəkatının sədri kimi çıxışında dünyanı narahat edən problemlər, münaqişələr, koronavirus pandemiyası ilə mübarizə, BMT-də islahatların aparılmasının vacibliyini diqqətə çatdırmışdı. Cənab Prezident çıxışında bildirib ki, BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq. Beynəlxalq təşkilatlar içərisində öz universallıq dərəcəsinə, əhatəliyinə, dünya siyasətindəki roluna və yerinə görə, ən yüksək qurumlardan biri olan BMT ilə Azərbaycan əlaqələri davamlı xarakter daşıyır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Paşinyan Serj Sarkisyanı ordunu onun üzərinə qaldırmaqda ittiham etdi



Ermənistanın baş naziri Nikol Paşinyan hesab edir ki, silahlı qüvvələrin baş qərargah rəisinin onun istefası barədə bəyanatı sabiq prezident Serj Sarkisyanın təsirinin nəticəsidir.

AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, Paşinyan bunu martın 1-də Respublika meydanında keçirilən mitinq zamanı bildirib.

"Açıq demək istəyirəm ki, baş qərargahın bəyanatı keçmiş hakimiyyətin, o cümlədən Serj Sarkisyanın təsirinin nəticəsidir. Baş qərargahın rəisi öz bəyanatı ilə qanunu pozub və istefa verməlidir. Bu qaçılmaz olsa da, o demək deyil ki, bundan sonra silahlı qüvvələrin sıralarında qan düşəcək. Sarkisyan və keçmiş hakimiyyət ordunu qanuni hakimiyyətin əleyhinə qaldırmağa cəhd göstərir", - deyə Paşinyan qeyd edib.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Nikolun "xaç atası" kimdir: Putin, yoxsa Soros?

**Ermənistan heç zaman heç kəs üçün indiki kimi "yağlı oyunçu" vəziyyətinə düşməmişdi. Həm də dünya gücləri üçün əlçatmaz stukaçı ölkə kimi möhkəm "dəyərə" minib. O, bundan sonra kimin "kəbinli qarısı" olacaq, bax düşmən ölkəni bu siyasi sancı bürüyüb. Həmişə sadəcə siyasi stukaçı idi deyənə, bugünkü ortam düşmən ölkəyə qəribə dünya kimi görünür. Həm də on illərdir bu xalqın qulağına oxudulan yalançı "məğlubedilməz" nağılı elə biabırçılıqla bitdi ki, indi ermənilər Yerevan küçələrində sadəcə bir-birlərinə baxışaraq "niyə belə oldu" deyə baş yelləyib keçirlər.**

Düşmən ölkədə kimin əli kimin cibindədir, kim hara "işləyir" bu məlum deyil. Paşinyan dünən əl-ələ verib tərəfdarları ilə yürüş edir, ona qarşı duran Qarabağ klanı da başqa yerdə onu söyüşlərə "qonaq edir". Üstəlik N.Paşinyan son 10 aydakı "səhvlərinə" görə ermənilərdən üzr istəyib, hətta referendum belə elan edib. Ermənistanda xaos orkestri baş alıb gedir. Əslində, bölgədə tarix boyu "stukaçı" ləqəbi ilə məşhurlaşan ermənilər, hər zaman maraqlı qüvvələr üçün əvəzsiz "əppək" olublar. Səbəbi də çox, lap çox sadədir: Bölgədəki ən yaxın qonşularına qarşı ən ağlasığmaz xainlik və şərəfsizlik etmək işinə gözünü qırpmadan "hə" deyən ikinci belə bir ölkə Qafqazda yoxdur. Dünya gücləri də əla bilirlər ki, Ermənistanın ipi kimin əlindədirsə, deməli regionda istənilən ölkəyə qarşı hürdürəcək köpəyə sahibdir. Bu bir təhqir cümləsi deyil, bu tarixi faktdır. Vəssalam. İndi Ermənistanda nələr baş verir, məğlub Nikol Paşinyan və onun hökuməti gerçəkdənmi başını itirmiş erməni cəmiyyəti tərəfindən küncə sıxışdırılıb, yoxsa bu N.Paşinyanın növbəti siyasi komediyasıdır.

Əslində bu gün Yerevan küçələrində əməlli-başlı siyasi komediyalar səhnələşdirilir. Keçmiş Qarabağ klanı yenidən hakimiyyət ipini əlinə almaq, N.Paşinyan onların başını əzib hakimiyyətini qorumaq, üstəlik müxalifətdəki bir sıra qüvvələr də bunların heç birinə aman verməndən məqsədlərinə çatmaq üçün çarpışırlar. Sözün əsl mənasında Ermənistanda "it yiyəsini tanımır".

İşə baxın: Baş Qərargah rəisi anidən N.Paşinyana rədd olub getməyi təklif edir, hakimiyyətdəkilər bunu hərbi çevriliş elan edib dünyanı haraya çağırır, Vladimir Putin "Sorosun uşağı" kimi təqdim olunan N.Paşinyanla birbaşa telefon əlaqəsi yaradır, amma ortada heç bir real çevriliş xəritəsi filan da görünmür. Üstəlik də ABŞ rəsmiləri də Ermənistanda "demokratiyanın müdafiəsinə" (????) çağırır. Bir-birini "vuran" proseslər Ermənistanı başına götürüb gedir.

Məni ən çox da ABŞ rəsmilərinin son bəyanatları təəcübləndirir. Abır-həyanın Ağ Ev-dən birdəfəlik yoxa çıxması mənasında acı təəcüb bürüyüb məni. Baxın, ABŞ-ın bəyanatı o qədər gülüncdür ki, buna dərindən "oxayyy" deyib gülməmək üçün gərək insani hisslərin olmasın. Sanki qara dərili amerikalı yazığı günün gündüz vaxtı dizlərinin altına salıb çığıra-çığıra öldürən, Trampın çağırışı ilə Konqresə dinc yürüş edən insanları elə Konqres binasındaca güllələyib qanına qəltan edən bu "demokratiya beşiyi" deyildi. "Adamda üz olar" deyəcəkdim, amma qərbdəkilərin üzü belə həyasızlıqlara çoxdan öyrəşib, elə buna görə də dünyadakıların qərbə olan etibarını da evdar xanımların sözü olmasın, "pol əskisinə" çeviriblər...

Amma görünən odur ki, Azərbaycanın dəmir yumruğu Ermənistana möhkəm yarayıb. Yarandığı ilk gündən dünya gücləri üçün ova aparılan tula rolunda çıxış edən Ermənistan siyasəti, Azərbaycan əsgərinin dəmir yumruğu ilə sanki möhkəm silkələnib. Diqqət edin 44 günlük müharibədən sonra bu düşmən ölkədə yerli ermənilərdən daha çox xarici qüvvələr erməni siyasətində əməlli-başlı "qaynayırlar"!

İndi Nikol Paşinyan üçün həyəcanlı zamandır, bu qaçılmazdır. Özü də hər mənada. İki versiya var Ermənistanda baş verənlərdə. Ya bu siyasi komediyanı paşikin özü qurub narazı ermənilərin qəzəbli havasını bu şəkildə "boşaldır", ya da narazı ermənilər həqiqətən də nikolcanın yekə qulaqlarına Yerevan mismarı keçirməkdə qərarlıdırlar. Hər iki halda paşikin halı pisdir. Nikolcan hər iki ssenaridən diri çıxmaq üçün çarpışır. Bəs bu N.Paşinyan kimin adamıdır, kim onu qoruyur, kim onu cəhənnəmə göndərmək üçün əlləşir?

Cəmi bir neçə il bundan qabaq kütlənin sevimli siyasi şoumeni kimi Serj Sarkisyanı bel çantası ilə devirən N.Paşinyanı Sorosun "uşağı" hesab etmək reallıqdan çox-çox uzaqdır. Tarix boyu Moskvanın dəyişməz tulası olan bir ölkədə Sorosun meydan sulaması ağlabatan məsələ deyil. Dünyanı lərzəyə gətirən Vladimir Putinin regiondakı əsas "qısqırtıcı köpəyi" olan Ermənistanı qərbdəkilərə uduzması ağıldan çox uzaq məsələdir. V.Putin heç vaxt Ermənistanı Sorosa uduzmaz, bu şübhəsiz belədir. Kremldə heç vaxt buna "dobro" verməzlər. Hə, deyəcəksiniz Ukrayna və Gürcüstan bəs? Yadda saxlayın, Ermənistan Ukrayna və Gürcüstan deyil, qətiyyən müqayisə belə etməyin. Ermənistanın Moskva üçün yüz illərdir gördüyü "işi" Ukrayna və Gürcüstan heç vaxt görə bilməzlər. Moskva Qafqazdakı müti nökərini heç kimə dəyişməz.

Hələ nəzərə alsaq ki, Rusiya ordusu daima Ermənistanı qoruyur, hərbi bazaları Gümrüdədir, rus əsgərləri də haykanuşların "dadına" baxa-baxa hər il bir erməni ailəsini güllələyib o dünyaya yollayır. Sadəcə, son iki illik prosesə baxın: Sorosun "uşağı" olduğu deyilən N.Paşinyan dəqiq xətlə V.Putinin "əlinə işləyir". Bunu görməmək üçün sadəcə siyasi korafəhim olmaq yetərlidir. Niyə V.Putin ən yaxın dostu Robert Koçaryana, sadiq nökəri Serj Sarkisyana deyil, siyasi şoumen N.Paşinyana "stavka" etdi? Guya bir neçə il əvvəl Yerevandakı kütlə şousunu Moskvadan icazəsiz hansısa Soros reallaşdıra bilərdimi? N.Paşinyan V.Putinin maraqları üçün hazırlanan siyasi layihədir, vəssalam. Zaman hər şeyi ayna kimi göstərəcək. Yetər o aynaya diqqətli baxasan...

# İlham Əliyev faktoru: Qurucu Lider, Müzəffər Sərkərdə reallığında!

***Artıq bir danılmaz faktdır ki, Azərbaycan xalqının Lideri, Prezident İlham Əliyev yaşadığımız və sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlayır, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə baş verən ciddi dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə edir, ölkəmizi istər gözlənilməz, istərsə də gözlənilən risklərdən uğurla qoruyur. Söz yox ki, dövlət başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün kataklizmləri irəlicədən görür və Azərbaycanı bu gözləntiləri qarşılamaq üçün qabaqcadan hazırlayır, öz Vətənini həyatın bütün sahələrində qələbələrdən-qələbələrə doğru qovuşdurur.***

Doğma xalqının parlaq gələcəyinə hesablanmış müdrik islahatlar həyata keçirən böyük dövlət xadimi İlham Əliyevin - Qurucu, Qalib və Mütərəqqi Prezidentin inkişafın bütün sahələrini əhatə edən zəfər yürüşü uğurla davam edir!..

## Azərbaycan dövlətinin və xalqının Lideri qarşısına çıxan bütün problemlərin həllində müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayiş etdirdi

Bəllidir ki, cənab İlham Əliyev Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq edir. Bu, dövlətçilik tariximizin çox mühüm amildir. Belə ki, ötən illər ərzində Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət potensialı çox çətin sınaqlardan çıxdı. Ölkəmizin başçısı dahi dövlət xadimi Heydər Əliyevin dərindən-dərinə ölçüb-biçərək uzun müddət üçün hazırladığı və heç bir alternativi olmayan xarici siyasət strategiyasını zərgər dəqiqliyi ilə müasir tələblər çərçivəsində həyata keçirdi. Ağır çətinliklərlə qarşılaşdı, lakin yolundan dönmədi və xalqın iradəsinə söykənərək qələbə qazandı.

Bəzi dövlətlər Heydər Əliyevdən sonra Azərbaycanı asılı vəziyyətə salmaq üçün yeni-yeni cəhdlər göstərsələr də, möhkəm iradəyə malik olan İlham Əliyevin proqressiv, qətiyyətli, prinsipial, sarsılmaz və cəsarətli gedişləri nəticəsində geri çəkilməyə məcbur oldular. Azərbaycanı tutduğu yoldan döndərə bilmədilər və nəticədə müstəqil Azərbaycan Respublikası heç bir dövlətin forpostuna çevrilmədi - əksinə regional gücə çevrilərək, inkişaf və tərəqqi yolunu beynəlxlq müstəviyə doğru genişləndirdi, söz sahibi, möhtəşəm layihələrin təşəbbüskarı olaraq çıxış etdi. Fikrimcə, Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində uğurla saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır. Bununla İlham Əliyev ona "özü qədər inanan" Ulu Öndərimizin siyasi vəsiyyətini şərəflə doğruldur!

Azərbaycanın dövlət başçısı yaradıcı və yenilikçi Liderdir. Prezident İlham Əliyev dünyada və ölkənin daxilində gedən dəyişiklikləri daim izləyir, idarəçilik fəaliyyətində nəzərə alır, Vətəninin və doğma xalqının daha da inkşaf etməsi naminə daim yeni yollar axtarır. İlham Əliyevin xarici və daxili siyasəti, həyata keçirdiyi bütün islahatlar, gördüyü böyük quruculuq və abadlıq işləri onun yaradıcı, yenilikçi və qurucu Prezident olmasının parlaq təzahürləridir.

Burada dünya şöhrətli Çingiz Aytmatovun "İlham Əliyev müasir dünyamızın lider etalonudur" ifadəsi bir də yada düşür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yurdumuzun bütün vətəndaşlarının, bütün bölgələrinin, bütün regionlarının prezidentidir. Qurucu Prezidentin bugünkü qaynar fəaliyyəti sübut edir ki, ölkənin hər bir vətəndaşı, hər bir bölgəsi, hər bir regionu onun üçün eyni dərəcədə əzizdir, doğmadır. İlham Əliyevə olan ümumxalq sevgisinin sirri də məhz bundadır. Məhz buna görə ölkə başçısı Azərbaycanın hər yerində eyni dərəcədə böyük hörmət və ehtiramla sevilir.

Prezident İlham Əliyev Azərbaycanın tarixi inkişafında yeni və olduqca gərəkli bir proqramın yerinə yetirilməsini qarşıya əsas məqsəd qoyub: təbii-tarixi xüsusiyyətlərinə və ənənələrinə uyğun olaraq Azərbaycanın bütün regionlarının iqtisadi cəhətdən inkişaf etdirilməsinə nail olmaq - bu siyasəti bütün xalqımız alqışlayır. Bu müdrik siyasətin bəhrələri göz önündədir. Artıq əhalimiz sürətlə artır. Lap yaxın gələcəkdə Azərbaycan 10 milyonu aşmışdır. Artıq Cənubi Qafqaz iqtisadiyyatının 80 faizdən çoxu bizim ölkəmizdə cəmlənmişdir.

Prezident İlham Əliyev ardıcıl surətdə vətəndaş həmrəyliyini möhkəmləndirmək siyasəti yeridir. O, cəmiyyətdə qarşıdurmanın, gərginliyin, soyuq münasibətlərin qəti əleyhdarıdır, Azərbaycanın parlaq gələcəyi naminə bütün xalqımızı daha sıx birləşdirməyə çalışır.

## GÜCLÜ İQTİSADİYYATDAN QARABAĞ ZƏFƏRİNƏ!

Ümummilli Lider Heydər Əliyevin müdrik kəlamlarının birində deyilir ki, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Güclü iqtisadiyyatı olan ölkənin güclü orduya malik olması onun mövqelərini daha da möhkəmləndirir, gücləndirir, dünya birliyindəki nüfuzunu artırır, milli maraqlarının qorunmasında böyük rol oynayır. Bəli, güclü iqtisadiyyat güclü dövlət deməkdir. Məhz bu baxımdan Azərbaycan Prezidenti cənab İlham Əliyev fəaliyyətdə olduğu bütün dövrlərdə dövlət üçün xüsusi əhəmiyyət kəsb edən iqtisadi siyasət sahəsinə önəmli diqqət yetirib.

Məhz bu kimi önəmli faktorun təhlilini aparakən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".



Bu fakt son illərdə Azərbaycan iqtisadi göstəricilərinə görə islahatçı ölkələr siyahısında olması bir daha deyilənlərin göstəricisidir. Belə ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 17-18 illik dövr ərzində 2,7 milyon yeni iş yerləri yaradılıb. Azərbaycan iqtisadiyyatı 3,5 dəfə, qeyri-neft sektoru 2,9 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,4 dəfə, əsas kapitala yönəlmiş vəsaitlərin həcmi 2,9 dəfə, dövlət büdcəsinin gəlirləri 20 dəfə, əhalinin nominal gəlirləri 9,9 dəfə, iqtisadiyyatın kreditləşməsi 22,8 dəfə artıb. İşsizlik səviyyəsi 49,2 faizdən 4,8 faizədək, yoxsulluq səviyyəsi 44,7 faizdən 4,8 faizədək azalıb. Həyata keçirilən islahatlar nəticəsində minimum pensiya 200 manata, minimum əməkhaqqı 250 manatadək artıb. Hazırda nominal orta əməkhaqqı 700 manatdan çoxdur. Rəqəmlər göstərir ki, Azərbaycan iqtisadiyyatı son illərdə kifayət qədər çox ciddi inkişaf yolu keçib. Xüsusən də fiskal gəlirlərdə müşahidə edilən artım, dövlət gəlirlərinin 20 dəfə artması böyük rəqəmdir. Belə bir artım digər ölkələrin təcrübəsində çox nadir rast gəlinən artımdır. 2003-cü ildən ölkə iqtisadiyyatına 260 milyard dollardan çox investisiya yatırılması sayəsində ölkəmizin karbohidrogen ehtiyatlarının ixrac kəmərləri, beynəlxalq logistik nəqliyyat dəhlizləri, ölkə daxili infrastruktur tikilib, Azərbaycan dünyanın ən sürətli inkişaf edən iqtisadiyyatına malik ölkələrin sırasına daxil ola bilib. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir. Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Yaranma vaxtı aktivlərinin 270 milyon dollar təşkil etdiyi Fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir. Məhz ötən illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Prezident İlham Əliyev cənablarının dediyi "Əldə edilmiş uğurların dünyada bərabəri yoxdur" fikri, bu gün həqiqətən də ölkəmizdə, xüsusilə Vətən müharibəsi getdiyi bir zamanda sübuta yetirdi.

## DÜNYAYA SƏS SALAN QALİBİYYƏT SİMVOLU

Mənfur terrorçu Ermənistanın sentyabrın 27-də ölkəmizə hücumuyla başlanan İkinci Vətən müharibəsi başlayan gündən bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir və bunu işğalçı, faşist xisləti düşmən dövlət də əməli şəkildə gördü. Bu gün bir-birinin ardınca işğal olunmuş torpaqlarımızın azad olunması, məhz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilməsidir ki, Müzəffər Azərbaycan Ordusu və rəşadətli əsgərlərimiz bu gün döyüş meydanında öz sözünü deyir və işğalçılıq siyasətindən əl çəkmək istəməyən Ermənistan öz layiqli cavabını alır. Çünki Azərbaycan haqq və ədaləti, beynəlxalq hüquq müstəvisində öz ərazi bütövlüyünün bərpa olunması yolunda mübarizədə Qalib gələrək bir daha sübut etdi ki, Qarabağ Azərbaycandır! Bu qələbənin altındakı imzanın müəllifi isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diplomatik və qətiyyətli siyasəti, Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti, xalqımızın öz rəhbəri ətrafında səfərbərliyi Vətən müharibəsində Qələbəni təmin etdi. Dekabrın 10-da keçirilən Zəfər paradı da xalqımız öz tarixi qələbəsini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu parad hər birimizi qürurlandırdı, duyğulandırdı, qələbəmizlə fəxr etdik. Bu parada səbəb olan qələbə Azərbaycanın bir dövlət olaraq gücünü, qüdrətini, xalqımızın öz haqqı uğrunda mübarizə aparmaq əzmini beynəlxalq ictimaiyyətə bir daha yaxından tanıtdı. Bu qələbə ilə dünya erməniliyinin onilliklər boyu Azərbaycana qarşı apardığı saxta təbliğat iflasa uğradı.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu günlərdə 35 jurnalisti iştirak etdiyi 4 saatlıq unikal press-konfransda İlham Əliyev cənabları bir daha bütün dünyaya özünün müdirlikliyini, peşəkar siyasətci, cahanşümal ordu komandanı olduğunu sübut etdi. Bu sual-cavabda xalqımız üçün də bəzi qaranlıq məqamlara aydınlıq gətirildi. Eyni zamanda, Onun ali diplomatik bacarığının növbəti isbatı oldu ki, beynəlxalq aləm Azərbaycanm reallığının bir daha şahidinə çevrilmiş oldu.

Prezident İlham Əliyev öz müdrik siyasəti ilə zamanı yetişdirdi və rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad edərək Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Qarabağın tacı Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında üçrəngli bayrağımızı ucaltdı və həmin qələbə bayraqları Zəfər paradında Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır! nümayiş etdirildi. Azərbaycanımızı, xalqımızı isə qarşıda daha nəhəng, daha davamlı uğurlar gözləyir - İlham Heydər oğlu Əliyev Cənablarının Liderliyi, rəhbərliyi və əlbəttə ki, müdrik siyasəti nəticəsində. Çünki bu gün Onun ətrafında həm də tükənməz xalq amili, tükənməz xalq sevgisi formalaşıb. Bizə, xalqımıza bu hissi, möhtəşəm qələbə sevincini ya-

# İlham Əliyev faktoru: Qurucu Lider, Müzəffər Sərkərdə reallığında!

şatdığınız üçün Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarına minnətdarıq.

## PANDEMİYA SINAQ MEYDANI İDİ...

Səmərəli sosial-iqtisadi siyasətdən bəhs edərkən konkret bir reallığı ifadə etmək lazımdır: Azərbaycan dövləti daim öz vətəndaşının yanındadır. Bu inkaredilməz həqiqət pandemiya şəraitində də özünü göstərir. Prezident İlham Əliyevin imzaladığı 19 mart 2020-ci il tarixli Sərəncamın icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması üçün çoxistiqamətli proqramlar müəyyənləşdirilib. Sənəddə məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 12 tədbir əksini tapıb. Bu istiqamətlərə iş yerlərinin və işçilərin əməkhaqlarının qorunması, əhalinin məşğulluq imkanlarının genişləndirilməsi, ödənişli ictimai iş yerlərinin sayının artırılması, işsizlər və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal çalışan şəxslərdən ibarət aztəminatlılara birdəfəlik ödəmələrin verilməsi, 2,3 milyon insanı əhatə edən sosial ödənişlərin davamlılığı, işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və s. məsələlər daxildir.

Beləliklə, iş yerlərinin saxlanılması üzrə tədbirlər, koronavirus pandemiyasından zərər çəkmiş fərdi sahibkarlara maliyyə dəstəyi, sahibkarlara vergi güzəştləri, imtiyazlar və vergi tətilləri verilməsi yolu ilə onların vergi yükünün azaldılması, kreditvermənin stimullaşdırılması və ən əhəmiyyətlisi, əhaliyə birbaşa sosial dəstək göstərilməsi böyük sosial-iqtisadi önəm kəsb edir. Eyni zamanda, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını bir da təsdiq edir.

Azərbaycan pandemiya dövründə də öz "məsuliyyətli ölkə" statusunun qorunmasına müvəffəq oldu. Azərbaycan bütün lazımi tədbirləri reallaşdırdı. Bir çox ölkələrin maddi vəziyyəti, xüsusilə indiki dövrdə çox aşağıdır. Bir çox ölkələr vətəndaşların gündəlik tələbatlarını ödəyə bilmirlər. Bu dövr ərzində Azərbaycan 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərib, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verib.

Ölkənin beynəlxalq təşəbbüsləri pandemiya dövründə də davam edir. Beynəlxalq müstəvidə Zirvə görüşlərinin keçirilməsinin də təşəbbüskarı olan Azərbaycan, həm Türk Şurasının, həm Qoşulmama Hərəkatının iki Zirvə görüşünü COVID-19-a həsr etmişdir.

## SOSİAL PRİORİTETLƏR DİQQƏT MƏRKƏZİNDƏDİR

Sosial siyasətlə bağlı qanunların qəbulu da ötən müddətdə əsas siyasi strategiya olub. Ötən illər ərzində təqaüdçülərin, əlillərin, şəhid ailələrinin, milli qəhrəmanların ailələrinin, qaçqın və məcburi köçkünlərin, digər sosial kateqoriyalardan olanların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olub. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında görülən işlər ölkəmizdə iqtisadi islahatların dərinləşməsini və vətənimizin bazar iqtisadiyyatı istiqamətində müvəffəqiyyətlə irəliləməsini, xalqın həyat səviyyəsinin dinamik olaraq yüksəlməsini bir daha sübut edir. Ölkəmizin iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla qarşıdakı illərdə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdiriləcək.

Digər mühüm məsələ ölkədə bütün sahələri əhatə edən kompleks xarakterli və sistemli islahatların həyata keçirilməsidir. Bu islahatlar istər məhkəmə-hüquq sistemində şəffaflığın artırılması, istər siyasi sistemin yeni konfiqurasiyasının formalaşması, istərsə də kadr potensialının gücləndirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Sosial siyasətin başlıca məqsədlərindən biri də cəmiyyətin başlıca sosial problemlərindən olan yoxsulluğun səviyyəsinin azaldılmasıdır. İqtisadiyyatın sürətli inkişafı yoxsulluğun səviyyəsinin azaldılması üçün geniş imkanlar açıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə yoxsulluğun səviyyəsi kəskin şəkildə azalıb. Ümumiyyətlə, Azərbaycanda yoxsulluğun səviyyəsinin bir neçə dəfə aşağı düşməsi onu göstərir ki, sosial siyasət çox düzgün aparılır və iqtisadi imkanlar ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilib.

"Azərbaycan güclü sosial siyasət aparmaqla həm öz dövlət siyasətini, öz niyyətini göstərir, həm də ki, insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün çox böyük işlər görür. Biz gələcəkdə bu siyasəti davam etdirəcəyik və ehtiyacı olan, növbədə dayanan hər bir insanın məişət problemlərinin həlli üçün çalışacağıq... Azərbaycan dövlətinin iqtisadi imkanları böyüyür, möhkəmlənir...", - deyən Prezident İlham Əliyevin sosial siyasətinin əsas gücünü ünvanlılıq, ədalətlilik və bərabərlik təşkil edir. Məhz bu siyasətin nəticəsidir ki, cəmiyyətdə ünvanlılığa, ədalətə və bərabərliyə əsaslanan güclü sosial baza yaradılıb.

Bu xüsusda Prezident İlham Əliyevin ikinci Qarabağ müharibəsində yaralanmış hərbçilərimizə göstərilən dövlət dəstəyi, həmçinin Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş hərbçilərimizin ailələrinə göstərilən diqqət və qayğı, onların sosial məsələlərinin operativ həll olunması barədə verdiyi tapşırıqları, ailələrin evlərlə, mənzillərlə təmin olunması kimi yüzlərlə faktlar qeyd edilən fikirləri sübuta yetirməkdədir.

Belə ki, 44 günlük müharibə vaxtı Azərbaycanın hərbi əməliyyatlar aparılmayan ərazisində ermənilərin hərbi cinayətləri nəticəsində 93 mülki şəxs həlak oldu, 400-dən çox mülki şəxs yaralandı, 3 mindən çox bina dağıldı. Dağılmış bütün evlərin hamısı dövlət hesabına yenidən tikiləcək, zərər görmüş bütün evlər dövlət tərəfindən bərpa ediləcək;

Bu günlərdə möhtərəm Prezidentimiz şəhid ailələrinə mənzil paylayarkən səsləndirdiyi bəzi fikirləri və rəqəmləri bir daha yada salmaq istəyərdim. Bu il 3 minə yaxın şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunacaq,vətəndaşlarımızın itirilmiş mülkiyyəti bərpa ediləcək. Onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı, daha geniş olacaq, Qarabağ əsl cənnət məkanına çevriləcək, yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək,Azərbaycan dövləti məcburi köçkünlərin məskunlaşdırılması üçün bütün imkanlarından istifadə edəcək, bütün yaralı əsgər və zabitlər sağaldılacaq, onların normal həyata qayıtması üçün bütün lazımi tədbirlər görüləcək və görülməkdədir, yaralı əsgər və zabitlərin gələcək həyatlarının qurulmasına bütün dövlət qurumları, özəl şirkətlər cəlb olunacaq, onları, işlə təmin etmək üçün xüsusi addımlar atılır, şəhid ailələrinin problemləri öz həllini tapır. Bu il 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək,vətən müharibəsində şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində maddi dəstək göstəriləcək, dəqiq uçot aparılandan sonra onlara mənzillərin, evlərin verilməsi təmin ediləcək.

Qeyd etdiyimiz kimi, bu kontekstdə torpaqlarımızın azadlığı uğrunda vuruşan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan dövləti ardıcıl olaraq bu kateqoriyalı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirir. Ümumiyyətlə, Azərbaycanda bu istiqamətdə görülən tədbirlər sistemində ünvanlılıq prinsipi əsas götürülür, aztəminatlı, ailə başçılarını itirən, eləcə də, şəhid və qazi ailələri, xüsusi qayğıya ehtiyacı olanlar dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Başqa sözlə, dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsi yüksək səviyyədə təşkil edilir.

## BÖYÜK QAYIDIŞ, TARİXİ MƏRHƏLƏ!

44 gün davam edən, amma bütün tarixboyu danışılacaq Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra artıq ölkəmizin həyatında yeni mərhələ-quruculuq, inkişaf, işğaldan azad edilmiş torpaqlarımızın bərpası dövrü başlayır. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev istər Vətən müharibəsi dövründə cəbhədən gələn qələbə xəbərlərini xalqa çatdırarkən, istər xarici mətbuata müsahibələrində, istər Azərbaycanın hərbi-siyasi Qələbəsinin təsdiqi olan 10 noyabr üçtərəfli razılaşmasından sonra, istərsə də Zəfər sevincini bölüşmək üçün işğaldan azad edilmiş şəhər və kəndlərimizə səfərləri zamanı bu əminliyi ifadə etmişdir ki, Qarabağ bölgəsində cənnət yaradacağıq. Xalqımız buna layiqdir. Böyük qayıdış proqramı hazırlanır. Tezliklə Azərbaycan xalqı və bütün dünya işğaldan azad olunmuş, dirçəldilmiş şəhərlərimizi, kəndlərimizi görəcək, xarici qonaqlar bu ərazilərimizi ziyarət etməyə maraq göstərəcək, bir sözlə, inkişaf modeli daim dünyaya nümunə olan Azərbaycanın həyatında yeni mərhələ başlayacaq. Dağlıq Qarabağ münaqişəsi geridə qalmaqla Azərbaycanın yeni iqtisadi və sosial inkişaf konsepsiyasının hazırlanmasını və uğurlu icrasını şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bütün şəhərlərin, kəndlərin bərpası vahid konsepsiya əsasında həyata keçiriləcək: "Azərbaycanın hər bir bölgəsi kimi, işğaldan azad edilmiş ərazilərimiz də zəngin potensiala malikdir. Məlumdur ki, Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. İşin təşkilini təmin etmək məqsədilə Əlaqələndirmə Qərargahı nəzdində idarələrarası mərkəz, mərkəzin nəzdində 16 işçi qrupu formalaşdırılıb. İşçi qruplarında 55 dövlət qurumunun nümayəndəsi iştirak edir. Bütün işlər planlı və kompleks yanaşma əsasında həyata keçirilir.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizdə, xüsusilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşada bütün işlərin planlı şəkildə həyata keçiriləcəyini bildirdi. Əsas diqqət göstərilən məsələlərdən biri də tarixi abidələrimizin bərpa olunmasıdır. Şuşa şəhəri ölkəmizin mədəniyyət paytaxtı elan edilib. Bunu hər kəs bilir və bu qərar yüksək qiymətləndirilib. Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar. Şuşa demək olar ki, dağılıb, bütün binalar dağılıb. Şuşanın hər bir məhəlləsi, hər bir daşı tarixdir. Qarşıya qoyulan hədəflərə nail olmaq, davamlı inkişafı təmin etmək üçün vətəndaş məmnunluğunun artırılması əsasdır. Bu isə öz növbəsində dövlət məmurlarının üzərlərinə düşən vəzifəni lazımi səviyyədə yerinə yetirmələrini bir tələbə çevirir. Möhtərəm Prezidentimizin məmurlardan tələbi daim bu olub: Dövlət maraqları hər şeydən üstün olmalı, məmurlar xalq üçün yaşamalı, onların qayğıları ilə maraqlanmalı, məsuliyyət hissini unutmamalıdırlar. "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm!" söyləyən dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri işğaldan azad edilmiş ərazilərimizdə başlanan quruculuq və bərpa işlərində də öz şəxsi və qrup maraqlarını güdən bəzi məmurlara ciddi mesajdır. Möhtərəm Prezidentimiz hər zaman çıxışlarında bildirir ki, Azərbaycan hüquqi dövlətdir. Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur.

Dövlətimiz tərəfindən həyata keçiriləcək tədbirlər, həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq. İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur.

İlkin mərhələ idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlər isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələlərini özündə ehtiva edir. Hər bir bölgəmizin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqlarına, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq onların ixtisaslaşması nəzərdə tutulub. Azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kimi aqrar sektor, kənd təsərrüfatı məhsullarının emalı və turizm sahələri müəyyənləşdirilib.

Beləliklə, böyük qayıdış planının icrası ölkəmizin növbəti tarixi mərhələsini ehtiva edir və bu mərhələdən sonra Azərbaycanımızı daha böyük, daha mütərəqqi və daha qətiyyətli uğur tandemləri gözləyir - xalq, iqtidar-Prezident birliyi ilə!

***Hadı RƏCƏBLİ,***
***YAP Siyasi Şurasının üzvü,***
***Siyasi elmlər doktoru, professor***

# Prezident Qarabağın bu günü və gələcəyi ilə bağlı bütün suallara nöqtə qoydu

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2021-ci il fevral ayının 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında iştirak edən jurnalistlərin sayına, təmsilçiliyinə, müddətinə və məzmununa görə analoqu olmayan tədbirlərdən biri idi. Cənab Prezident 4 saatdan çox çəkən mətbuat konfransında 4 dildə, dünyanın 35 qabaqcıl və tanınmış media qurumunun 50-yə yaxın sualını cavablandırmış, verilən bütün sualların cavabları gözlənildiyindən daha ətraflı və zəngin olmuş, mətbuat konfransı açıq, şəffaf və isti mühitdə,işgüzar şəraitdə keçirilmiş, jurnalistlərə öz suallarını verməyə hərtərəfli şərait yaradılmışdı.



Cavablandırılan suallarda Cənab Prezident 44 günlük müharibədən və 10 noyabr 2020-ci il tarixli üç tərəfli bəyənatdan sonra Qarabağ bölgəsindəki mövcud durum, bölgənin dirçəldilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr, regiondakı ictimai-siyasi vəziyyət, Qarabağda təhlükəsizliyin və davamlı sülhün təmin edilməsi, bərpa-quruculuq, kommunikasiyaların açılması, beynəlxalq birlik üçün Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə yaranan yeni imkanlar, Rusiya sülhməramlı qüvvələrinin və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti, Qarabağda yaşayan etnik ermənilərlə gələcəkdə birgəyaşayışın təmin edilməsi, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına,o cümlədən Xocalı da daxil olmaqla hazırda Rusiya sülhməramlı qüvvələrin nəzarətində olan ərazilərə köçürülməsi istiqamətində Azərbaycan hökumətinin gördüyü işlər, Azərbaycanla Ermənistan arasında sərhəd məsələləri, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə və Azərbaycan-İran münasibətlərinin 10 noyabrdan sonrakı vəziyyəti və gələcək inkişaf perspektivlər, Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində atılan addımlar, Ermənistandakı revanşist qüvvələrin hakimiyyətə gəlmək xülyaları və 44 günlük müharibədən sonra ağır və sarsıdıcı məğlubiyyət fonunda Ermənistanın daxilində baş verən idioloji və siyasi hakimiyyət böhranı və digər çoxsaylı məsələlər barədə istər dünya ictimaiyyətində, istərsə də ölkə əhalisində yaranan suallar,dəqiqliklə və məntiqlə cavablandırdı, onları narahat edən məsələlərə tam aydınlıq gətirdi. Azərbaycan cəmiyyətinə bir daha aydın oldu ki,"DQR" və "Dağlıq Qarabağ" deyilən bir məfhum yoxdur və bu barədə söhbət gedə bilməz . "Nəyi, nə zaman və necə etməyi" Azərbaycan Respublikasının Prezidenti, Cənab Ali Baş Komandan İlham Əliyevdən yaxşı heç kəs bilmir.

Prezident regionda, ölkədə və Qarabağda baş verən proseslərin hər birindən məlumatlıdır, bu prosesləri istiqamətləndirir, idarə edir və lazım gəldikcə, məqamı yetişdikdə müsahibələr, görüşlər, səfərlər və digər tədbirlər zamanı bu barədə media vasitəsilə istər beynəlxalq ictimaiyyətə, istər ölkə əhalisinə, istərsə də opponetlərimizə, rəqiblərimizə və düşmənlərimizə lazımı mesajlar (ismarıclar) verir. Bu ismarıclar o qədər aydın və anlaşılan formada verilir ki, onları başa düşməmək nadanlıqdır. Cənab Prezidentin son mətbuat konfransı onun nə qədər səbr və dözüm qabiliyyətinə, yüksək intellektə və diplomatik gedişlərə, yanaşma ustalığına, yüksək ünsiyyət keyfiyyətlərinə malik olduğunu bir daha nümayiş etməklə,müasir dövrün siyasi lideri,ağıllı və müdrik dövlət başçısı olmaq nümunəsini əyani şəkildə nümayiş etdirdi. Əminik ki, bu mətbuat konfransı 44 günlük Vətən müharibəsindəki qələbədən sonra informasiya cəbhəsində ölkəmizin mövqeyini daha da möhkəmləndirməklə, regionda yaranmış yeni şəraitdə Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır.

***Ramiz Göyüşov,***
***YAP Binəqədi rayon təşkilatının sədri***

# Rauf Əliyev: Şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir

**"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cənablarının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin ən başlıca vəzifəsi çəhid ailələrinin və müharibə əlillərinin sosial ehtiyaclarının yüksək səviyyədə təmin edilməsidir. Şəhid ailələri və müharibə əlillərinə qayğı dövlətin prioritet vəzifəsidir". Bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.**



Rauf Əliyev bildirib ki, fevralın 25-də Prezident İlham Əliyevin Ramana qəsəbəsində bütün zəruri sosial infrastrukturla təchiz olunmuş 1512 mənzildən ibarət, 30 binadan ibarət yaşayış kompleksində şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak etmişdir. Bu yaşayış kompleksinin istifadəyə verilməsi, həyata keçirilən geniş miqyaslı sosial layihənin bir hissəsidir. Yaşayış kompleksinin ərazisində 1200 şagird yerli məktəb, uşaq baxçası inşa olunub. Yaşayış üçün bütün imkanlar yaradılmışdır. Müharibədən cəmi üç ay keçib, ancaq çəhid ailələri və müharibə əliləri üçün artıq müsir tələblərə cavab verən yaşayış kompleksi istifadəyə verilib. Cənab Prezident İlham Əliyev tərəfindən cari ilin yanvar ayında imzalanan Sərəncamla təsdiq olunmuş Dvlət Proqramlarına əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil , habelə fərdi evlə təmin ediləcək.

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyev şəhid ailələrinə və müharibə əlilərinə mənzillərin təqdim olunması mərasimində çıxışı zamanı qeyd etmişdir ki, "Dövlət şəhid ailələri, müharibə əliləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə grüşmüşəm. Bu günə qədər 9200- yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək". Qeyd olunub ki, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Digər şəhər və rayonlarda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir.

Deputat qeyd edib ki, ehtiyacı olan bütün qazilərə dövlət tərəfindən bu günə qədər lazımi köməkliklər göstərilib və bundan sonra da götəriləcək: "Qazilərə tibbi yardım və reabilitasiya xidməti əsaslı təmirdən sonra açılmış Şağan qəsəbəsindəki rablitasiya mərkəzində də göstəriləcək. Bu mərkəzdə minlərlə qazi hər il müalicə alaraq reablitasiyadan keçərək, öz sağlamlıqlarını bərpa edəcəklər. Müharibə dövründə, əlini, qolunu itirmiş qazilərimiz üçün ən müasir protezlər sifariş edilib. 300-dən çox qazi bu protezlərlə təmin olunacaq. Ayaqlarını itirən qazilərimizin bir hissəsi bu protezlərlə təmin edilib. Müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi sahəsində həyata keçirilən bütün bu tədbirlər göstərir ki, Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə öz sosial siyasətinin strateji prioritetlərinə sadiqdir və bundan sonra da belə olacaq".

# Türkiyənin yeni yaxın mənzilli zenit-raket kompleksi

Türkiyənin milli hərbi sənayesi daha bir yeni silah sistemini təqdim edib. Bu, SUNGUR yaxın mənzilli zenit-raket kompleksidir. "Ejder Yalçın" zirehli avtomobilinin üzərində quraşdırılan raket kompleksinin sınaqlarının tamamlandığı haqda Müdafiə Sənayesi Agentliyinin başqanı İsmayıl Demir özünün sosial şəbəkə hesabından elan edib. Və kompleksin videogörüntülərini paylaşıb. Kompleks portativ özəllikləri sayəsində quru, hava və dəniz platformalarına inteqrasiya edilə biləcək. "Sevindirici hadisənin xəbərini aldıq, birazdan sizlərlə də paylaşacağam, gözləyin",-İsmayıl Demir yazıb. Və daha sonra kompleksin sınaqlarına dair görüntüləri yayıb. Videogörüntülərə əsasən SUNGUR yaxın mənzilli hava hədəfini yüksək dəqiqliklə vurur. Kompleksi Türkiyənin və dünyanın aparıcı hərbi sənaye şirkətlərindən olan ROKETSAN hazırlayıb. Bu komplekslər Türkiyə Silahlı Qüvvələrinin silahlanmasında yer alan və ABŞ istehsalı olan "Stinger" zenit-raket komplekslərini əvəz edəcək. Və Türkiyənin eşalonlaşdırılmış havadan müdafiə sisteminin ilk eşalonunda yer alacaq. Kompleks qanadlı raketlərə, pilotsuz uçan aparatlara, alçaqdan uçan təyyarələrə və vertolyotlara qarşı yüksək effektivlik nümayiş etdirir. Və quru qoşunlarını həm hücumda, həm müdafiədə belə hava hədəflərinə qarşı qoruyur. Tezliklə SUNGUR komplekslərinin silahlanmaya daxl olacağı gözlənilir. Komplekslər ROKETSAN-ın PORSAV "yer-hava" raketləri ilə təchiz edilib. Bu raketlər 4 kilometrə qədər yüksəklikdə, 8 kilometrə qədər uzaqlıqda olan hədəfləri vura bilir.

Qeyd edək ki, SUNGUR yaxın mənzilli zenit-rakeet komplekslərinə gələcəkdə Azərbaycan da maraq göstərə bilər. Çünki bu komplekslər Azərbaycan ordusunun silahlanmasında yer alan "OSA" yaxın mənzilli zenit-raket komplekslərini (modernizə edilmiş variant) gələcəkdə əvəz etmək üçün ideal vasitədir.

# YAP Şəmkir rayon təşkilatı İdarə Heyətinin növbəti iclası keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasda YAP Şəmkir rayon təşkilatı İdarə Heyətinin üzvləri və ərazi ilk partiya təşkilatlarının sədrləri iştirak edib.

İclası YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev açaraq gündəlikdə duran məsələlər barədə məlumat verib. Bildirib ki, 26 Fevral Xocalı Soyqırımının 29-cu il dönümünün qeyd olunması ilə bağlı bütün regionlarda olduğu kimi Şəmkirdə də geniş şəkildə qeyd olunub. F.Vəliyev, həmçinin xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən 44 günlük Vətən müharibəsindəki zəfərin misilsiz qələbəmiz olduğunu deyib. Tədbirdə, həmçinin gündəlikdə duran rayon təşkilatının uçotunda dayanan partiya üzvülərinin müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi üzvlər proqramında həmin məlumatlarının işlənməsi, hər bir partiya üzvünün şəxsiyyətini təsdiq edən sənədin və partiya vəsiqəsinin surətinin toplanması işinin icra vəziyyəti, eyni zamanda, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət-gənclər siyasətinə dair Prezident, Yeni Azərbayxan Partiyasının Sədri İlham Əliyevin dövlətin idarə olunmasında gənclərə göstərilən diqqət və qayğıdan, bu qayğının dövlət başçısının siyasətinin göstəricisi olduğu vurğulanıb.

İclasda "Şəhid ailələrinə qayğı" aksiyasının gedişi barədə YAP Şəmkir rayon təşkilatının sədri F.Vəliyev bildirib ki, şəhid ailələrinin, müharibə veteranlarının, əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür diqqət və qayğı ilə əhatə olunmaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini təşkil edir: "Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər xalq tərəfindən rəğbətlə qarşılanır. Dövlətin dəstəyi ilə yanaşı cəmiyyətin ayrı-ayrı təbəqələri bu kateqoriyadan olan insanlarımıza həsaslıqla yanaşır və dəstəklərini əsirgəmirlər. Yeni Azərbaycan Partiyası tərəfindən keçirilən "Şəhid ailələrinə qayğı" aksiyasını insanlarımız rəğbətlə qarşılayır və təqdir edirlər".

İclasda aksiya çərçivəsində YAP-ın Şəmkir rayon təşkilatının həyata keçirdiyi tədbirlərdən, eyni zamanda şəhid ailələrinin və qazilərin problemlərinin həlli istiqamətində görülən işlərdən danışılıb, bu işə müntəzəm xarakter verilməsinin vacibliyi qeyd olunub. İclasda həmçinin, təşkilatın iş planına uyğun olaraq ərazi ilk partiya təşkilatlarında partiya üzvlük haqlarının hesablanıb köçürülməsi vəziyyəti müzakirə olunub.

***R.HÜSENOVA***

# YAP Laçın rayon təşkilatının İdarə Heyətinin iclası keçirilib

YAP Laçın rayon təşkilatnın İdarə Heyətinin videoformatda iclası keçirilib. İclasda YAP Laçın rayon təşkilatının İdarə Heyətinin üzvləri ilk növbədə Xocalı soyqırımının qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi anılıb.



YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov iclası açaraq gündəlikdə duran məsələlərin müzakirəsini təklif etdib. İclasın gündəliyi qəbul edildikdən sonra İlqar İlyasov ölkədəki ictimai-siyasi durum haqqında ətraflı çıxış edib. Daha sonra YAP Laçın rayon əşkilatının sədr müavini, Aparat rəhbəri Xaliq Musayev 2021-ci ilin fevral ayında YAP Laçın rayon təşkilatının gördüyü işlər barədə ətraflı məlumat verib.

Sonra İdarə Heyyəti üzvülərinin çıxışları dinlənilib, təkliflər müzakirə edilib. Görülən işlər rayon təşkilatı İdarə Heyəti tərəfindən məqbul qiymətləndirilərək, qarşıda duran məsələlər müzakirə edilib. Partiyanın rayon təşkilatının iş planına uyğun olaraq cari məsələlərin vaxtında və dəqiq icraatı ilə bağlı aidiyyatı üzrə tövsiyə və tapşırıqlar verildi.

Sonda YAP Laçın rayon təşkilatının İdarə Heyətinin iclası ilə bağlı qərar layihəsi dinlənildi və İdarə Heyəti üzvüləri tərəfindən yekdilliklə qəbul edildi.

***R.HÜSEYNOVA***

# Azərbaycan uğurlu bir gələcək qarşısındadır

**II Qarabağ müharibəsinin zəfərlə başa çatmasından keçən hər bir gün ölkəmizi uğurlu sabaha aparır. Bu Zəfər Azərbaycanın haqq sözünü bütün dünyaya bir daha çatdırdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qalib ölkənin Ali Baş Komandanı kimi istər müharibə zamanı, istərsə də ondan sonrakı günlərdə apardığı daxili və xarici siyasəti region ölkələri arasında iqtisadi-siyasi əlaqələrin möhkəmlənməsinə həsr edilmişdir.**



Ölkə rəhbərinin yüksək intellektual səviyyəsi, uzaqgörən siyasətlə irəli sürdüyü mühüm təkliflərin, beynəlxalq səviyyədə təqdim etdiyi təşəbbüslərin zaman-zaman özünü doğrultması ona yüksək nüfuz qazandırır. Bununla yanaşı, fundamental dəyərlərə, ədalətli davranış qaydalarına sadiqliyi Prezident İlham Əliyevə böyük inam yaradıb. Artıq beynəlxalq qurumların ali rəhbərləri, dünya liderləri qəbul ediblər ki, əgər hər hansı bir təklif Azərbaycan Prezidentindən gəlirsə, deməli, bu, dərin təhlillərə, aydın proqnozlara və real həllərə əsaslanır. Müharibənin ilk günlərindən torpaqlarımız azad olunduqca həmin ərazilərdə təmizlənmə, bərpa və quruculuq işlərinə başlanılırdı.

Artıq sərhədlərimiz sovet dövrü xəritəsinə əsasən bərpa olunur. İnfrastruktur layihələri üzrə quruculuq-bərpa işlərinə başlanılıb. Hazırda bu istiqamətdə həyata keçirilən layihələr bütün sahələri əhatə edir. Bunlar bölgənin həm iqtisadi, həm də sosial inkişafının təmin olunması üçün vacib sahələrdir.Odur ki, ilk növbədə enerji və yol layihələrinə önəm verilir. Bütün Qarabağın elektrik enerjisi ilə təmin etmək üçün yüksəkgərginlikli xətlər çəkilir və elektrik yarımstansiyaları inşa olunur.

Həmçinin bölgənin yüksək enerji istehsal etmək potensialı nəzərə alınır. İşğaldan azad olunan ərazilərdə ekoloji cəhətdən təmiz, bərpa olunan enerji növlərinin yaradılması üçün geniş imkanlar mövcuddur. Odur ki, dövlət başçısı bu ərazilərin tezliklə “yaşıl enerji” zonasına çevriləcəyini inamla bəyan etmişdir. Tezliklə bu ərazilərdə günəş, külək və su mənbələrindən istifadə olunacaqdır.

Füzulidə aeroportun tikintisinin sürətlə davam etməsi, Şuşaya yeni avtomobil yolunun çəkilməsi, Naxçıvana istiqamət götürən dəmir yolunun təməlinin qoyulması Qarabağda müasir tələblərə cavab verən yol infrastrukturunun yaradılmasından xəbər verir. Belə ki, həmin nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad edilmiş ərazilərə səfərlərini asanlaşdırmaqla yanaşı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranması baxımından da önəmlidir. Bir mühüm cəhət isə odur ki, bu marşrut tezliklə region ölkələrinin qarşılıqlı əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcək. Bundan əlavə, həmin dəmir yolu xətti Asiya ilə Avropa arasında yüklərin daşınmasını sürətləndirməklə beynəlxalq əhəmiyyət qazanacaq. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşəcək. Eyni zamanda Azərbaycan ərazisindən keçməklə Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Həmçinin Rusiya, İran, Türkiyə, Ermənistan arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranacaq. Yəni bütün bölgə ölkələri bundan xeyir görəcəkdir.

Bununla da əgər erməni xalqı ağıllı və uzaqgörən olarsa gələcəyini Azərbaycanın yaratdığı şəraitdən faydalanıb qurmaqla dağıdıcı faşist ideologiyasından birdəfəlik yaxasını qurtara bilər.

Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü və nüfuzlu olmamışdır. Bu güc həm siyasi, iqtisadi, hərbi gücdür, həm də xalq-iqtidar birliyinin gücüdür və bütün bunların nəticəsində bizim regionda oynadığımız müsbət roldur.

II Qarabağ müharibəsinin ilk günlərindəölkədə fəaliyyət göstərən partiyaların böyük əksəriyyəti ölkə başçısının haqq işinə müsbət cavab verərək, siyasi dialoqa qoşuldular. Hazırda bu dialoqda demək olar ki, bütün siyasi qüvvələr iştirak edir. İştirak etməyənlərə siyasi qüvvə demək mümkün deyildir. İştirak etməyən dəstə məlum olduğu kimi xain, satqın antimilli şuradır.Onlar qan və can bahasına qazanılmış uğurlarımızı ləkələmək istiqamətində Azərbaycana düşmən xarici qüvvələrə arxalanaraq növbəti təxribat xarakterli addımlar atmaqdadırlar.

Azərbaycan Xalq Cəbhəsi və bu gün onunla antimilli şurada cəmləşən törtöküntüləri Qarabağ müharibəsi dövründə fərarilik etmişlər. O zaman AXC-Müsavat cütlüyü torpaqlarımızın müdafiəsi üçün ordu qura bilmədi. Bu cütlük iqtidarda olduğu müddətdə yalnız şəxsi maraqlarını güdürdü. Dünən bir yerdə hakimiyyət uğrunda mübarizə aparanlar hakimiyyətə gəldikdən sonra AXC-nin şinelini soyunaraq hərəsi bir mundir geyindi və partiya yaratmaqla prezident postu uğrunda mübarizəyə başladılar. Hər bir partiyanın şəxsi silahlı dəstəsi vardı. Ümumi tabeçilik və rəhbərlik yox idi. Prezidenti öz komandası eşitmirdi, özü isə qardaş Türkiyədən iki mülki helikopter belə almaq iqtidarında deyildi.Məhz bu anarxist quruluş və səbatsız idarəetmə torpaqlarımızın işğalına, böyük insan köçünə və itgisinə səbəb olmuşdu.

Yalnız tarixi qayıdış ölkəmizi xilas etdi. Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu, dirçəldi, regionun güclü və nüfuzlu dövlətinə çevrildi. Torpaqlarımızın 30 illik işğalına son qoyuldu.

Artıq işğaldan azad olunmuş torpaqlarımızın bərpası prosesi başlamışdır. “Qarabağ bölgəsində cənnət yaradacağıq” deyən ölkə Prezidenti işğaldan azad edilən bütün şəhərlərin, kəndlərin bərpasının müasir tələbləri nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlı öz göstərişlərini vermişdir. Dövlətimiz azad edilmiş rayonlarda tezliklə geniş miqyaslı quruculuq işlərinə başlayacaq, münbit torpaqların istifadəsi təmin olunacaq, maddi və mənəvi sərvətlərimiz bərpa ediləcəkdir.

Azərbaycanın uzun müddət işğal altında qalmış ərazilərinin azad edilməsi bölgədə davamlı inkişaf üçün yeni imkanlar açacaqdır. Ölkə başçısının göstərişinə əsasən, işğaldan azad olunmuş ərazilər “yaşıl enerji zonalarına” çevriləcək,Qarabağ regionunda “ağıllı kənd”, “ağıllı şəhər” layihələri həyata keçiriləcəkdir.Bununla bağlı artıq beynəlxalq şirkətlərlə əməkdaşlıq işlərinə başlanılmışdır.Xatırladaq ki, bu konsepsiyası Prezident İlham Əliyevin sərəncamı ilə imzalanmış “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda öz əksini tapmışdır.Ölkə Prezidenti istər birinci, istərsə də ikinci Vətən müharibəsi şəhidlərinə və qazilərinə, onların ailələrinə böyük həssaslıqla, diqqətlə yanaşır. Onlara göstərilən qayğı günü-gündən artır.Dövlət başçısının bu sahədəki siyasəti birmənalıdır. Son 17 il ərzində cənab İlham Əliyev şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşdür. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. 2025-ci ilə qədər bu rəqəm 11 minə çatdırılacaq.Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib.

Ermənistanın 44 günlük biabırçı məğlubiyyəti işğalçı ölkədəki mövcud sosial-iqtisadi böhranı daha da dərinləşdirdi, mənəvi-psixoloji durumu sürətlə gərginləşdirdi. Hazırda Ermənistan sonu görünməyən tənəzzül dövrünü yaşayır. İqtisadiyyatı tamamilə çökmüş işğalçı ölkənin hökuməti əhalinin sosial vəziyyətini düzəltmək və sosial müdafiə layihələrini həyata keçirmək iqtidarında deyil. Elə bu səbəbdən əhali vəziyyətdən çıxış yolunu yenə də ölkədən qaçmaqda, başqa dövlətlərəsığınmaqda görür. Ermənistan prezidentinin etiraf etdiyi kimi, indi erməni xalqı təkcə dövlətin deyil, millətin böhranını yaşayır. Ölkədə daxili qarşıdurma da pik həddə çatıb. Kilsə ilə hökumət arasında münasibətlərin gərginliyi artıb.Ermənistanda bir sıra siyasi qüvvələr uğradıqları acı məğlubiyyətlə barışmaq istəmirlər. Ölkədə revanşist müxalif qüvvələr baş qaldırmışdır. Onlar yeni müharibədən, qisasçılıqdan, hətta işğaldan azad olunan ərazilərimizin yenidən geri qaytarılmasından da dəm vururlar.

Bu azmış kimi, erməni qəsbkarlar Nikol Paşinyan hakimiyyətini devirib tarixi 10 noyabr sazişinə əməl etməyəcəklərini də açıq şəkildə bildirirlər. Qarabağ ərazisinə təxribatçı səfərlər, öz havadarlarına güvənərək ərazilərimizdə kəşfiyyat-diversiya dəstələri ilə terror və təxribatlar törətmək cəhdləri mənfur düşməni daha pis vəziyyətə gətirib. Onlar bu uğursuz cəhddən əl çəkməlidirlər. Əksinə, Rusiya Prezidenti Vladimir Putinin sözləri ilə desək, belə addımlar Ermənistan üçün intihar olacaqdır.

Azərbaycan Ordusnun Qarabağın azad edilməsi uğrunda apardığı “Dəmir yumruq” əməliyyatı Ermənistana və onun bəzi xarici havadarlarına bir mesaj oldu. Onlar bundan məntiqi nəticə çıxarmalıdırlar.Bu barədə ölkə Prezidenti cənab İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışında qeyd etdiyikimi “...bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməmərik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər”.

Ərazilər işğaldan azad olunduqdan sonra ermənilərin bizim torpaqlarda apardığı talançılıq və dağıdıcılıq nəticəsində Azərbaycana dəyən ziyanın nə qədər olması diqqət mərkəzinə gəlir. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi məqsədilə İşçi Qrupu yaradılıb və 1988-1994-cü illərdə erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı hər cür əmlakın, o cümlədən yeraltı yerüstü sərvətlərin itkisinin dəyərinin hesablanması, onların qiymətləndirilməsi və bu sahədə elektron məlumat bazası yaradılıb.

Ermənistan bir dövlət kimi dünya xəritəsindən silinəcək bir vəziyyətdədir.Bu ölkədə yaşanan böhranı, qeyri-müəyyənliyi aradan qaldırmağın yeganə yolu keçmişin səhvlərindən nəticə çıxararaq dünya miqyasında inkişaf etmiş ölkə kimi tanınan və regionda söz sahibi olan Azərbaycanla dinc qonşuluq yoluna qayıtmaqdır.

İnanırıq ki, xalqımızın Prezident İlham Əliyev ətrafında daha da sıx birləşməsi, milli birlik, həmrəylik ideyalarımızı daha da artıracaq, xalqın sonsuz etimadına, inam və dəstəyinə güvənən prezidentimiz bundan sonra da, respublikamızın inkişafı üçün apardığı şərəfli və çətin missiyanı uğurla həyata keçirəcəkdir.

*Abil Ağasəfov*
*Yeni Azərbaycan Partiyası Qəbələ rayon Təşkilatının sədri*



## YAP Ağdaş rayon təşkilatı idarə heyətinin onlayn iclası keçirilib

YAP Ağdaş rayon təşkilatı İdarəHeyətinin onlayn formatlı iclasını rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq gündəlikdəki məsələlər ilə İdarə heyəti üzvlərini tanış etdi. YAP Ağdaş rayon təşkilatı İdarə heyətinin iclasında Xocalı faciəsinin 29-cu ildönümü haqqında, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının ərazi ilk partiya təşkilatının 2021-ci ilin I yarımilliyi üçün nümunəvi Perspektiv fəaliyyət Planının təsdiq olunması barədə, Gənclərin partiya sıralarına üzv olunması barədə məsələlər müzakirə olundu.

Həmçinin cari məsələlərə də toxunuldu. Gündəlikdəki məsələlər İdarə heyətinin üzvləri tərəfindən geniş müzakirə olundu, müvafiq iradlar bildirildi, rəy və təkliflər səsləndirildi, qərarlar qəbul olundu. İclasda qarşıda duran vəzifələr və YAP Ağdaş rayon təşkilatı Şurasının mart ayında keçiriləcək iclasının gündəliyinə hansıməsələlərin daxil edilməsi ilə bağlı fikir mübadiləsi də aparıldı.

*Zümrüd*

## Bill Qeyts açıqladı: Koronavirus pandemiyası bu vaxt bitəcək

“Microsoft” kompaniyasının banisi Bill Qeyts koronavirus pandemiyasının bitmə vaxtı ilə bağlı proqnozunu açıqlayıb.



CNN telekanalı xəbər yayıb ki, Bill Qeytsin fikrincə, dünya 2022-ci ilə qədər “normal vəziyyətə” qayıda bilər. “Problem ondadır ki, biz bütün planetdə pandemiyanın bitməsi üçün yetəri qədər səy göstərmirik”, - deyə o bildirib. Milyarderin sözlərinə görə, ABŞ artıq payız aylarında demək olar ki, normal vəziyyətə qayıdacaq. Bu zamana qədər bütün məktəblər açılacaq, restoranlar fəaliyyətini qismən bərpa edəcək və idman tədbirləri keçiriləcək. Lakin pandemiya üzərində yekun qələbə qazanmaq üçün vaksinasiya məsələsində “bütün dünyaya yardım etmək” lazımdır.

Bill Qeyts hələ ki, koronavirus əleyhinə preparatların yalnız varlı ölkələr üçün əlçatan olduğunu və “Gates Foundation” fondunun vaksin istehsalının artırılması üçün əlavə müəssisələrin tikilməsi ilə məşğul olacağını qeyd edib.

## Gürcüstanın Azərbaycanla hava sərhədi açıldı

Artıq Gürcüstanın hava məkanı Azərbaycandan birbaşa uçuşlar üçün açılıb. Belə ki, qonşu ölkəyə təyyarə ilə yollanacaq Azərbaycan vətəndaşlarından 72 saatdan gec olmayaraq edilən PCR testinin mənfi nəticəsini təsdiqləyən arayış tələb olunacaq.

Bu qayda Gürcüstan ərazisindən tranzit keçidi kimi istifadə edəcək vətəndaşlara da şamil olunacaq. Gürcüstanda qalacaq Azərbaycan vətəndaşları 3 gündən sonra öz hesablarına PCR testindən keçməli olacaqlar. Hazırkı mərhələdə Gürcüstan hökuməti quru sərhədlər vasitəsilə sərbəst gediş-gəlişə tətbiq etdiyi məhdudiyyətləri qüvvədə saxlayır. Qonşu ölkəyə quru sərhədlərdən koronavirusa qarşı vaksinasiyanın hər iki mərhələsindən keçən istənilən ölkənin vətəndaşları daxil ola bilərlər.

Qeyd edək ki, yaxın günlərdə Azərbaycan və Gürcüstan arasında Bakı-Tbilisi- Bakı istiqaməti üzrə müntəzəm aviareyslərin bərpa olunacağı gözlənilir. / Report

# Həm hərb meydanda, həm də danışıqlar masasında İlham Əliyev qətiyyəti

**Prezident İlham Əliyev: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında..."**



**Bəli, bu gün qazanılan qələbələr Azərbaycan Prezidentin, Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqın birliyinin məntiqi nəticəsidir. Və uzun sözün qısası, Böyük Azərbaycan zərrə-zərrə işğal edilsə də, ağır döyüşlərdə büdrəsə də, heç vaxt yıxılmamışdır. Dəfələrlə aramsız müharibələrə, talanlara, işğallara məruz qalan ana yurd Prezident cənab İlham Əliyevin sözləri ilə desək, heç vaxt indiki qədər qüdrətli olmamışdır. Bəli, bunu hər bir kəs, bütün dünya görür və Azərbaycan Prezidentinin diplomatik və uğurlu siyasətinə həsəd aparırlar.**

Elə feralın 26-da Prezident İlham Əliyev tərəfindən yerli və xarici media nümayəndələri üçün 4 saatdan çox davam edən konfransda dünyanın 35-dən çox media orqanının 50-yə qədər suallarına tam əsaslandırılmış hər bir cavabı bir daha dneyilənlərin reallıqlarıdır. Bu tarixi mətbuat konfransında dövlətimizin başçısının xarici media nümayəndələrinin bütün suallarını təmkinlə və ətraflı cavablandırması bir daha Azərbaycan Prezidentinin güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğunun bir daha şahidi olmaqla yanaşı, həm də Azərbaycana qarşı dezinformasiya yaymaq istəyənləri yerindəcə tərksilah etdi. Azərbaycan həqiqətləri ilə yanaşı, dünya ictimaiyyətinə həm də olduqca mühüm mesajlar da çatdırıldı. Bütün dünyaya göstərdi ki, Azərbaycanın Ermənistan üzərində qələbəsi ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir. Dövlət başçısı bildirdi ki, bu gün Ermənistanda revanşist qüvvələr hakimiyyətə gələrək əldə edilmiş razılaşmaların üstündən xətt çəkmək istədiyi halda "dəmir yumruq" hər zaman yerindədir. Bir sözlə, Azərbaycan Prezidenti bu mətbuat konfranqsı ilə informasiya sahəsində də Ermənistanı tam məğlub etmiş oldu.

Mətbuat konfransında dövlət başçımız bir sıra məsələlərə də aydınlıq gətirərək, həm işğal zamanı, həm də müharibə dövründə ermənilərin törətdikləri vəhşilikləri, azərbaycanlılara məxsus müqəddəs yerlərin təhqir edilməsini jurnalistlərin diqqətinə çatdırdı və bildirdi ki, bütün bu faktları onlar öz ölkələrində işıqlandırmalıdırlar. Həmçinin, Prezident İlham Əliyev Ermənistanın baş naziri Paşinyanla qurulan təmaslar haqqında ətraflı məlumat verərək, onun ikiüzlüyünü və yalanlarını açıq şəkildə hamının diqqətinə çatdırdı. Bütün bunlarla yanaşı, dövlət başçımız Qarabağın gələcək inkişafı, görüləcək quruculuq işləri haqqında da fikirlərini bölüşdü, həmçinin, gələcəkdə regionda yerləşən dövlətlərlə sıx əlaqələrin yaradılacağını da söylədi. Və bir daha vurğuladı ki, Ermənistan Azərbaycanla mehriban və qonşuluq şəraitində yaşamağa üstünlük verərsə, bu iki xalqın keçmişdə olduğu kimi gələcəkdə də bir yerdə yaşaması mümkündür. Çünki Azərbaycan hər zaman bölgədə dayanıqlı sülhün və stabilliyin təminatçısı olmuşdur.

### Qətiyyətin təntənəsi...

Ən qürurverici o idi ki, həmin brinfiqdə iştirak edən KİV nümayəndələri, eləcə də bütün dünya mətbuatında dövlətimizin başçısının sualları yüksək diplomatik məharət, natiqlik nümayiş etdirərək, səlis, təfərrüatlı, dəqiqliklə, məntiqlə, tam əsaslandırılmış şəkildə, özü də müxtəlif dillərdə cavablandırması, sözün həqiqi mənasında, heyrət doğurmuşdu. Dövlətimizin başçısı mətbuat konfransında bir çox önəmli mesajlar da verdi və onun hər fikrini maraqla dinləyən geniş bir auditoriya var idi. Hər kəs Prezident İlham Əliyevin nə qədər uzaqgörən, müdrik bir siyasi xadim olduğunu bir daha gördü.

Həmin mətbuat konfransında Böyük Britaniyadan olan müstəqil jurnalistin sözləri də bir daha deyilənlərin göstəricisidir: "Cənab Prezident, bizi bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 dildə bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım".

Həmçinin, KGK İdarə Heyətinin sədri Mehmet Ali Dim, Prezidentin 4 saatlıq fasiləsiz konfransla dünya rekordu qırdığını söyləyib: "Mən hələ belə bir səbirli lider görməmişəm. Bütün suallara səmimi cavab verdi. Azərbaycan xalqı çox şanslıdır. Bu cür təcrübəli və savadlı lider hər ölkədə ola bilməzdi".

Londonda fəaliyyət göstərən jurnalist, KGK baş katibinin müavini Aynur Tattersall isə dünya liderləri ilə görüşməyin ortalama yarım saatdan 1 saata qədər davam etdiyini bildirib: "25 ildir jurnalistəm, dünyanın dörd bir yanında mətbuat konfranslarını izləmişəm. Dünya liderinin hər suala jurnalistin öz dilində bu qədər uzun müddət cavab verdiyini ilk dəfədir görürəm".

Bax, budur Liderlik!. Necə də qürur duymayasan. Güclü ölkənin güclü, qətiyyətli lideri olmaq budur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu uğurlar, əlbəttə ki, bu son 17 illik prezidentlik fəaliyyəti nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində baş verdi. Hər zaman ilklərə imza atan Prezident İlham Əliyev fevralın 26-da keçirdiyi mətbuat konfransı ilə dövlətimizin başçısı daha bir ilkə imza atdı. Bu, Azərbaycan Prezidentinin yerli və xarici media nümayəndələri ilə dörd saatdan artıq davam edən ilk görüşü idi. Dövlətimizin başçısı bu məsələyə toxunaraq dedi: "Mən bilirəm, hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki, niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir, müsahibələr vermir. Mən hesab edirəm ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj varmı və səni dinləyəcək bir auditoriya varmı? Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Beləliklə, Prezident İlham Əliyevin keçirdiyi mətbuat konfransı Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımdan çox uğurlu oldu. Azərbaycan Prezidenti bir daha dünyanın diqqətini özünə cəlb etdi. Bu mətbuat konfransı informasiya cəbhəsində Azərbaycanın mövqeyini daha da gücləndirdi. İnanırıq ki, 30 ildən xeyi müddətdə işğal edilən torpaqları 44 günlük Vətən müharibəsi nəticəsində xilas edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev doğma Qarabağımızı cənnətə çevirəcək və bütün dünya bu diyarı daha da yaxından tanıyacaq.

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

# Məşhur Məmmədov: "Dövlət başçımız mətbuat konfransı ilə Azərbaycan həqiqətlərini dünyaya çatdırdı"



"Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə demişdir ki, 2020-ci ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır, 2021-ci il də artıq qələbələrlə başlayır. Bu uğurlara elə ilin ilk günündən şahid olduq. 2021-ci il yanvarın 4-də Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanın imzalanması, yeni təyinatlar, Azərbaycan beynəlxalq aləmdə güclü dövlət, etibarlı tərəfdaş kimi tanınması, ən əsası isə Qalib ölkənin Qalib Liderinin işğaldan azad olunmuş torpaqlara Qələbə yürüşü Azərbaycan böyük zəfərlərə, ardıcıl uğurlara doğru getdiyinin göstəricisidir. Cənab Prezident İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün videoformatda keçirdiyi tarixi mətbuat konfransı isə dünya dölətlərinin diqqət mərkəzində olmaqla bir daha dövlət başçımızın informasiya sahəsində uğurlu qələbəsini, dünya dövlətlərinin həsəd apardığı Azərbaycan Prezidenti 4 dildə 4 saatdan çox müddətdə 35 jurnalistlərin suallarını təmkinlə, sərrast və çox əhatəli şəkildə cavabları ilə Ermənistana, ermənilərin havadarlarına mühüm mesajlar verərək Azərbaycan haqqında həqiqətləri çadırdı". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov bildirib.

M.Məmmədov bildirib ki, Prezident İlham Əliyev keçirdiyi mətbuat konfransında Qarabağın heç bir statusunun olmadığını bir daha dünyaya çatdıraraq "Dağlıq Qarabağ" ifadəsinin yanlış olduğunu söylədi və xüsusi olaraq qeyd etdi ki, Dağlıq Qarabağ artıq mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır: "Dövlətimizin başçısı bir daha Qarabağ Azərbaycanındır və Azərbaycandır deyərək NİDAsının birdəfəlik qoydu. Ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini işlətməməliyik, mesajını verdi. Azərbaycan bu münaqişənin bir tərəfi idi və biz bu fikri açıq-aydın ifadə edirik ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan bunu həll edib. 30 il davam edən danışıqlar heç bir nəticə verməyib. Minsk qrupu yaradılsa da, onun fəaliyyəti sıfıra bərabər olub. Son 2 il ərzində faktiki olaraq Minsk qrupunun həmsədrləri heç özləri də bilmirdilər nə işlə məşğul olsunlar. Çünki Ermənistan baş nazirinin yersiz və təhlükəli bəyanatları onların fəaliyyətlərini də iflic və mənasız edib".

Deputat dövlət başçımızın statusla bağlı məsələyə də geniş şəkildə aydınlıq gətirdiyini söylədi: "Aranlı, dağlı Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni xalqı yaşayır, biz buna etiraz etmirik. Baxmayaraq ki, erməni əhalisi ora XIX əsrin əvvəlində köçürülmüşdü. Bizim ölkənin başqa yerlərində də erməni əhalisi yaşayır və heç bir problem yaşanmır. Ona görə də statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, daha çox qarşıdurmaya xidmət göstərir. Ermənistan və erməni xalqı üçün bu (status məsələsi - red.) nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Çünki Ermənistan və erməni xalqına yanlış vədlər vermək lazım deyil. Onları bax bu günə salan səbəblərdən biri də məhz bu idi: xülya, iddia, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynayıblar. Ona görə də status məsələsi ümumiyyətlə gündəlikdən çıxarılmalıdır".

M.Məmmədov Prezidentin fevralın 26-da yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında dil məsələsinə də aydınlıq gətirdiyini bildirib: "Azərbaycan Prezidenti bu məsələdə də öz mesajını verdi. Azərbaycanda yeganə rəsmi dil Azərbaycan dilidir və Azərbaycan ərazisində digər heç bir dilin rəsmi statusu ola bilməz. Hazırda Azərbaycanın o bölgəsində qeyri-qanuni olaraq özlərini rəhbər adlandıranların manipulyasiyasıdır. Onlar orada suahili dilini də Qarabağın rəsmi dili elan edə bilərlər. Bunun heç bir təsiri və nəticəsi ola bilməz. Dağlıq Qarabağ mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır. Düşünürəm, bu, onların, həmin cinayətkar xunta rejiminin son nəfəsidir, son cəhdləridir ki, guya onlar dövlətdirlər".

Millət vəkili keçirilən mətbuat konfransında Prezident İlham Əliyevin heç bir dilə hər hansı məhdudiyyət qoyulmadığını da bildirdi: "Dövlət başçımız konfransda vurğuladı ki, rus dili Azərbaycanda çox geniş istifadə edilən dildir və bu gün bizdə sovet dövründən fərqli olaraq rus dilində daha çox qəzet və internet saytları fəaliyyət göstərir. 340-a yaxın rus bölməsi olan məktəbimiz var. Ermənistanda isə neçə belə məktəb var? Sıfır. Ermənistanda yalnız orada olan rus hərbi kontingentinin övladları üçün bir məktəb fəaliyyət göstərir. Onlarda hətta təqribən belə bir qanun da qəbul edilib ki, erməni uşaqları rus məktəblərinə gedə bilməz. Yəni bu, özlərinin qeyd etdiyi kimi, strateji tərəfdaşlarına olan diskriminasiya, ayrı-seçkilikdir. Onlar Rusiyadan hərbi resursları qəbul edirlər, bizim məhv etdiyimiz bütün silahları, hansı ki dəyəri 3-5 milyard dollar civarındadır, onlar bütün bunu Rusiyadan pulsuz almışdılar. Bu, hədiyyə və ya dırnaqarası kredit müqavilləsi əsasında olmuşdur. Həmin kredit ki, onlar heç zaman onu ödəməyəcəklər. Baxın, belə bir tərəfdaşa qarşı onlar ayrı-seçkilik edirlər. Rusiya televiziya kanallarına qarşı yeni qanunvericilik qəbul edilmişdir. Müharibədən sonra onlar bunu bir balaca, qismən aradan qaldırıblar. Onlar rus dilini qadağan edirlər, rusdilli məktəbləri qadağan edirlər. Ancaq baxın, indi Rusiya sülhməramlıları Qarabağa yerləşəndən sonra birdən bunlar rus dilini rəsmi dil kimi qəbul edirlər".

"Ümumiyyətlə, dövlət başçımızın son 17 il ərzində istər beynəlxalq səviyyəli görüşlərdə, istərsə də verdiyi müsahibələrində mövcud reallıqları, apardığımız haqq işini dünya ictimaiyyətinin diqqətinə çatdırmaqla bir daha Qələbəmizin rəmzinə çevrilən - Qarabağ Azərbaycandır və NİDA! deməklə "bu məsələnin digər açıqlaması yoxdur"- söyləyən millət vəkili Məşhur Məmmədov onu da bildirdi ki, biz haqq yolundayıq, məhz buna görə də tarixi ədalət bizim tərəfimizdədir: "Çünki bu qələbə Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının "dəmir yumruq" siyasətinin qələbəsidir. Və dövlət başçımızın keçirdiyi bu tarixi mətbuat konfransı da informasiya sahəsində əldə olunan böyük qələbədir".

***RƏFİQƏ KAMALQIZI***

# Ermənistan vətəndaş müharibəsi astanasında

**Paşinyana qarşı çıxış edən Ermənistan müxalifəti ermənilərə, bu işğalçı ölkəyə nə təklif edə bilər, deyə sual indi çoxlarını düşündürür. Ölkəni böhrandan çıxarmaq üçün aydın bir proqramları əgər yoxdursa, bu müxalifət nəyə nail ola bilər? Ümumiyyətlə, proqramı olmayan bir təşkilatlanma hansı istiqamət götürə bilər və nədən, hansı nəticədən söhbət gedə bilər? Onların axı Ermənistanın gələcəyi ilə bağlı aydın bir baxışı belə yoxdur.**

Əlbəttə ki, 10 noyabrdan sonra başlayan və Onik Qasparyanın rəhbərlik etdiyi generalların üsyanı ilə kəskinləşən kəskin daxili siyasi böhran bu gün mitinq fəaliyyəti şəklində inkişaf etməlidir. Bildiyiniz kimi, bazar ertəsi İrəvanda üç mitinq və yürüş gözlənilir. Bir gün ərzində və bir-birinin ardınca yürüşlər, mitinqlər təsadüfi ola bilməz. Bu ondan xəbər verir ki, erməni cəmiyyətində iki yox, üç və çox güman ki, daha artıq siyasi qüvvə qarşıdurmadadır. Böyük ehtimallara görə, güzəştə getmək istəməyən qarşı tərəflər, sürətlə ölkəni uçuruma doğru itələyirlər. Məhz vətəndaş müharibəsi təhlükəsi də var. Bəli, bu gün Ermənistanın özünün müasir tarixində vətəndaş müharibəsi ərəfəsində olduğunu açıq şəkildə və cəsarətlə söyləmək olar. Yeni və köhnə Ermənistan tərəfdarlarının bir qarşı-qarşıya gələcəyi bir toqquşma gözləniləndir.

Təbii ki, şəxsən Nikol Paşinyanın istefasını fəal şəkildə dəstəkləyənlərə suallar kifayət qədər çoxdur. Kiməsə elə gəlməsin ki, biz Ermənistan müxalifətinə qarşıyıq, yaxud, Paşinyanın və onun yürüşdə olan "qardaşları"nın, tərəfdarlarının mövqeyini dəstəklədiyimizi kimsə düşünməsin, heç də belə niyyətimiz yoxdur. Sadəcə, bu gün müxalifətin mitinqinə qatılmaq niyyətində olanları başa düşmək istəyirik ki, onlar nə üçün və kimlər üçün mübarizə aparırlar? Mübarizə aparan qüvvələrin hərhansı proqramı yoxdursa, hansı məqsəddən söhbət gedir və köhnənin yerində ən azından nə vəd olunur?

Mübahisə etmək niyyətində deyillik və razıyıq ki, Nikol Paşinyan bir lider deyil, heç bundan sonra da olması ehtimalı mümkün görünmür. O, ermənilər üçün heç nə etmədi, Ermənistanı güclü iqtisadiyyatı və inkişaf etmiş bir demokratik dəyərlər sistemi olan inkişaf etmiş bir dövlətə çevirmədi. Çevirə bilmədi və bunu bacara biləcəyi də mümkünsüzdür. Çünki onun tutduğu yol reallıqdan çox uzaqdır. Ancaq daxili auditoriyaya hesablanan vədlərlə kütləni, erməni xalqını aldatmağı Paşinyan yaxşı bacarsa da, erməni xalqına nə isə verməyi bacarmadı. Əksinə, hər istiqamətdə aldadaraq erməniləri çox şeylərdən məhrum etdi, itgilər verməsinə rəvac verdi. Hələ ötən ildə 44 günlük müharibə ərəfəsində vətəndaşları yalançı qələbələri ilə aldadan Paşinyan və onun hakimiyyəti hədsiz sayda canlı qüvvə itkisinə, demək olar ki, son həddə qədər hərbi texnika və sursat itkisinə səbəb oldu. Minlərlə erməni əsgərinin qanına baiskar oldu Paşinyan və yalançı qələbə vədləri çox ailələri başsız, evladsız, gözü yaşlı qoydu. Nəticədə, indi də xaosun bu ölkədə hökm sürməsinə şərait yaratdı. Bir zamanlar qələbəyə həvəsləndirilən erməni xalqı qəflətən məğlubiyyət xəbərindən şok yaşadı. Bu şok effektini müharibəni bitdiyi ilk gündən bu zamana qədər meydanlarda müşahidə etmək çətin olar. Hələ də ermənilər niyə bu hala düzdüklərini, bu acınacaqlı məğlubiyyətlə qarşılaşdıqlarını nə anlaya, nə də dərk edə bilmirlər. Müharibə dönəmində hər dəfə qələbələr vəd edən, yalan məlumatlarla kütləni, xalqı aldadan Paşinyan və onun komandası yalan üzərində qurduğu strategiya ilə vətəndaşları ilə yanaşı, özlərini də, ölkələrini də çətin duruma sürüklədilər. Hər dəfə nitqi zamanı buraxdığı səhvlər sayəsində də böhranlı vəziyyəti daha da alovlandırdı, cəmiyyətdəki qarşıdurmaları daha da kəskinləşdirdi.

2018-ci ilin yazından etibarən Ermənistanın sıravi vətəndaşları özlərini əvvəl Koçaryan, daha sonra Sarkisyan kimi cinayətkar-oliqarx rejim üçün bir vasitə olduğunu bir növ anlamış kimi göstərdilər. Son 20 ildə ilk dəfə məmurların hakimiyyətinə, sistem korrupsiyasına qarşı mübarizəyə başladılar. Guya ki, adi bir erməni ilk dəfə sosial şəbəkələr və şəxsi ünsiyyət vasitəsilə birbaşa olaraq ölkə başçısına düşüncələrini, istəklərini, problemlərini çatdırmaq fürsəti tapdı. Bəli, ola bilsin ki, adi bir erməni üçün bütün bunlar Robertin və Serjin dövründə yalnız xəyal ola bilərdi və bu xəyalları yalnız Paşinyanın dövründə gerçəkləşdi. Amma, indi də ermənilər dərk etdilər ki, bu fürsət deyilən imkanlar sadəcə başqa yöndə aldadıldılar və söz yağışı ilə beyinləri dumanlandırıldı, çaşdırıldılar və sonda yenə də tovladıldılar, bu dəfə də Paşinyanın hiylələrinin qurbanına çevrildilər. İndi sıravi erməni məhz düşürüldüyü bu oyunlara görə özünü aldadılmış, təhqir olunmuş, məğlub hesab edir və öz vəziyyəti ilə barışmayaraq meydanlara axışır, Nikolun istefası tələbi ilə çıxış edir.







Doğrudur, müharibədəki məğlubiyyətdə, itgilərin böyük olmasında günahkarlığın böyük hissəsi Nikol Paşinyana aiddir. Bu barədə kimlərlə isə mübahisə etmək niyyətində deyilik. Bu reallıqdır. İndi erməni baş nazir qarşısında qoyulan, "məğlub olduqları təqdirdə niyə müharibə davam etdirilirdi və erməni əsgərləri niyə qırğına verilirdi", kimi suallar verməkdə hər bir erməni haqlıdır. Bundan əlavə müharibənin başlamasına rəvac verən, şərait yaradan Paşinyan bu səhvi ilə yanaşı 44 günlük savaş dönəmində də səhvləri, liderlik qabiliyyətlərinin, idarəçilik keyfiyyətlərinin olmaması ilə yadda qaldı. Bir sözlə, erməni baş nazirinə məxsus olan səhvlər kifayət qədərdir. Amma, görəsən səhv yalnız oan məxsusdurmu və ondan başqa heç kəsin səhvi yox idimi?

Bəs müharibə əməliyyatlarına rəhbərlik edən eyni Onik Qasparyan və üsyançı generallar səhv etmədilərmi? Məğlubiyyətə görə bəyəm Paşinyanla eyni məsuliyyəti onlar daşımırlar? Bu generallar ordunu qarət edən, ərzaq və avadanlıq tədarükündən qazanc əldə edənlər deyildilərmi? Qoşunların döyüş hazırlığı ilə məşğul olmaq əvəzinə özlərini dıqnaqarası "məğlubedilməz" adlandırmadılarmı?

Bəs indi Vazgen Manukyan və Onik Qasparyan ermənilərə Paşinyandan fərqli olaraq nə təklif edə bilər? Ölkəni böhrandan çıxarmaq üçün aydın bir proqramları yoxdursa, Ermənistanın gələcəyi, dünyadakı yeri barədə yenə də aydın bir baxışdan belə məhrumdurlar. Yalnız arzu etdikləri hakimiyyət üçün çalışırlar bunlar da. Bu isə erməni xalqına, onun sıravi vətəndaşına heç nə verə bilməz və xilası ağlasığan deyil.

Bəs Manukyan və Qasparyan hakimiyyəti alsalar bu hakimiyyəti qoruyacaqlarmı? Erməni xalqı buna əmindirmi və yaxud, bu sualın cavabını verə bilərmi? Robert Koçaryanın hakimiyyəti onlardan alacağı gün kimi aydındır. Bir sözlə, ermənilərin təzədən Koçaryan rejimi altına düşəcəyi bəlli məsələdir. Ermənistanın Rusiyanın bir marionetinə, yüz minlərlə ermənin mühacirə, ölkənin iki milyon yarım sakinini səssiz kölələrə çevirən adamın əli altına düşəcəyi deməl deyilmi bu?

Ermənilər bu gün Paşinyanın tərəfdarı olmasalar belə, Koçaryan rejiminin bərpasının əleyhinə olmalıdırlar. İndi ermənilər özlərinə yalnız bir sual versinlər ki, onlar hansı gələcək istəyirlər? İstəyirlər ki, keçmişə qayıtsınlar? Hamısının bütövlükdə yenidən səssiz kölə və potensial miqrant olacağı diktator Koçaryanın qaranlıq keçmişinə yoxsa qayıtmaq niyyətindədirlər?

Hər halda seçim ermənilərin özlərinindir və onlar seçim qarşısındadırlar. Bütövlükdə Ermənistan yol ayrıcındadır. Doğru yolla, yanlış yol ayrıcında. Onilliklər boytu seçə bilmədikləri doğru yolu seçmək imkanı əldə edən ermənilər bu dəfə də yanlışlıq etsələr, heç şübhəsiz ki, vətəndaş müharibəsi, ardından isə Ermənistanın bir dövlət olaraq xəritədən silinməsi, ermənilərin ən yaxşı halda kimlərində birbaşa köləsinə çevrilməsi gözləniləndir. Yanlışlıq təkcə Paşinyanla, yaxud onun tərəfdarları, ya da əleyhidarlarında deyil. Yanlışlıq ümumiyyətlə ermənilərin onları aldadan insanların köləsinə çevrilməsindədir. Yanlışlıq ermənilərin bütün qonşuları ilə işğalçılıq siyasəti yürütməsindədir. Səhv addım ermənilərin özlərini yenə də marginallaşdırması, küncə qısılmış hala gətirməsidir. Erməni xalqının özünü uçuruma sürükləməsi məkrli niyyətindən, xəstə təxəyyüllərdən əl çəkməməsidir, indi ortalığa atılan "revanşizm" kimi axmaq fikirlər irəli sürməsi, bununla da özünü tamamilə üçuruma sürükləməsidir.

***İnam Hacıyev***

# Erməni təcavüzü, "beşinci kalon", koronavirus - Hansı daha təhlükəlidir?

***Bu gün bir həqiqəti anlamaq və dərk etmək lazımdır ki, Azərbaycan düşmənə heç vaxt unuda bilməyəcəyi dərs verir və verməkdədir - istər siyasi, istər döyüş, istərsə də informasiya meydanında. Hər üç meydanda Azərbaycanın tam qələbə çalmasına bütün dünya şahid olub. Bəli, bugünkü şəraitdə ölkəmizin bütün sahələrində həyata keçirilən tədbirlər və əldə olunan real nəticələr ölkə Prezidentinin həyata keçirdiyi uğurlu sosial siyasətin sübutudur.***

Prezident İlham Əliyev: "Radikal müxalifətin Azərbaycanda vəziyyəti pisləşdirməyə nə gücü, nə də ağlı çatır"



Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir".

Sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhə boyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks hücumu nəticəsində düz 44 gün ərzində ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarının "dəmir yumruq" siyasəti və xalq-iqidar-ordu birliyinin, xalqın, ordunun öz Liderinə inamı nəticəsində qələbə qazandıq, ərazi bütövlüyümüzü bərpa etdik, Qarabağımıza qovuşduq.

Növbəti qələbəmiz - informasiya sahəsində əldə etdiyimiz uğurlardır. Prezident İlham Əliyev tərəfindən fevralın 26-da yerli və xarici media nümayəndələri üçün 4 saatdan çox davam edən konfransda dünyanın 35-dən çox media orqanının 50-yə qədər suallarına dövlət başçımızın tam əsaslandırılmış hər bir cavabı bir tezis olaraq bütün dünyaya göstərdi ki, Azərbaycanın Ermənistan üzərində qələbəsi ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir.

Bəli, bu gün bütün bu uğurları həzm edə bilməyən radikal müxalifət anlamır ki, bu çirkin əməllərindən əl çəkmədikcə xalqın nifrətinə səbəb olurlar. Çünki xalqı, dövlət, Vətəni satanlar ancaq və ancaq xalqın düşmənidir.

Dövlət başçımız da bütün çıxışlarında radikal müxalifətin xəyanətkar, xain olduğunu bildirərək xalqı onların bu xəyanətlərini unutmamağa çağırıb: "Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir".

Bu gün dövlət başçımızın bu mesajından sonra AXCP-Müsavatın hansı xəyanət axtarışını edir?. Və özünü "lider" adlandıran Əli Kərimli ən birinci cinayətkar və xəyanətkar deyilmi? Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir". Belə olan halda nə istəyir, Əli Kərimli? Bəlkə

Ə.Kərimli elə zənn edir ki, ağqara deməklə elədikləri unudulacaq? Əsla!!! Haraya qədər?. Artıq sonundur. Və bir daha bunu dönə-dönə yadınızda saxlayın ki, 2003-cü ildən tarixin zibilliklərindəsiniz və o yeri çağırış etdiyiniz, asatçınçılıq etdiyiniz o xalq göstərib. Və bu gün Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və...bu sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman belələrinə susmaq, haraya qədər?

Dövlət başçımızın dediyi kimi: "Onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır".

Bəli, bu marginallar bilməlidirlər ki, bu gün Azərbaycanın sükanı etibarlı əldədir. Və Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır, bağışlamayacaq da!.

***Rəfiqə HÜSEYNOVA***



## Erməni 579 nəfəri evinə qeydiyyata saldırıbmış...

Krasnoyarsk sakini olan bir qadına qarşı 18 kvadratmetrlik mənzilində 129 miqrantı qeydiyyata saldırdığı üçün cinayət işi açılıb. Rus qanunlarına görə, onu ya cərimə, ya da məcburi əmək gözləyir. SİA bu barədə TASS-a istinad edir.

Beləliklə, Rusiya hüquq-mühafizə orqanlarının əməkdaşları qadının altı ay - 2020-ci ilin yanvarından iyun ayınadək ona müraciət edən bütün miqrantları fəal şəkildə qeydiyyata saldırdığı aşkar edilib. Reallıq isə budur ki, qadının qeydiyyata aldırdığı miqrantların heç biri onun 18 kvadratmetrlik mənzildə yaşamırdı. Hazırda qadına qarşı cinayət işi açılıb. Onu 100-500 min rubl arası cərimə və ya 3 ilə qədər məcburi əməklə cəzalandırma gözləyir.

Maraqlıdır ki, bu Rusiyada mənzili olanların miqrant qeydiyyatı ilə bağlı yaşanan ilk hadisə deyil. Belə ki, bir müddət bundan əvvəl Zelenoqradda bir otaqlı mənzil sahibinin evində 579 nəfərin qeydiyyatda olduğu aşkar edilmişdi. Maraqlıdır ki, 579 nəfərin qeydiyyata alındığı mənzilin sahibi erməni olan A. Asaturyanın əməli o mənzili satmaq istərkən ortaya çıxıb. Sonradan onun bu əməllə əvvəllər də məşğul olduğu ortaya çıxıb.

***Ağasəf Babayev***

## Minasyan: Mitinqə psixi xəstələri də zorla gətiririrlər

Ermənistanın Vatikandakı keçmiş səfiri, eks-prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan baş nazir Nikol Paşinyana dəstək məqsədilə təşkil olunan mitinqləri ələ salıb. "İki sahil" xəbər verir ki, sabiq diplomat Paşinyanın mitinqinə gələnlər barədə ilginc iddia irəli sürüb. "Mənə bütün psixiatriya klinikalarının rəhbərlərinə verilən tapşırıq barədə məlumat daxil olub. Onlara gəzə bilən xəstələrin hamısını Nikolun görüşünə - mitinqə göndərmək tapşırığı verilib. Əminəm ki, Fellini sağ olsaydı, bu hadisədən filmlərindən birində istifadə edərdi. İmkanları olsa, ölənləri də qəbirlərindən qaldırarlar. Təki iqtidaryönlü mitinqdə iştirak edənlərin lazımi sayı təmin edilsin. Ümid edirəm xəstələrin onsuz da həssas olan səhhətləri mitinqdə zərər görməyəcək", - deyə Minasyan vurğulayıb.



## "AXC-Müsavat cütlüyü hərbi qüvvələri öz məkrli məqsədləri üçün istifadə edirdi"

AHÇ MÜSAVAT

Biz hər birimiz yaxşı bilirik və gələcək nəsillər də yaxşı bilməlidir ki, o zaman Azərbaycanda hakimiyyətə gəlmək üçün mənfur AXC-Müsavat cütlüyünün xalqımıza qarşı etdikləri xəyanət nəticəsində Şuşa, Laçın, Kəlbəcər heç bir müqavimət göstərilmədən erməni faşistləri tərəfindən işğal edildi. "İki sahil" xəbər verir ki, bunu Milli Məclisin deputatı Cavid Osmanov deyib.

Deputat qeyd edib ki, bununla da müharibənin taleyi həll olundu və həmin ərazilər işğal olduqdan sonra Ermənistanla Qarabağ arasında bağlantı yarandı: "AXC-Müsavat cütlüyünün ölkədə yaratdıqları xaos, anarxiya, vətəndaş qarşıdurması, hərbi qüvvələri öz məkrli məqsədləri üçün istifadə etmələri, hərbi qüvvələrin döyüş meydanından geri çağırılması ilk növbədə Şuşanın işğalına gətirib çıxardı və bundan bir neçə gün sonra Laçın da işğala məruz qaldı və bununla da Ermənistanla Qarabağ arasında bir bağlantı yarandı. Ondan bir müddət sonra da Kəlbəcər işğala məruz qaldı. Həmin ərazilərimiz işğala məruz qalan zaman oradan dinc əgalinin çıxarılması üçün AXC-Müsavat hakimiyyəti tərəfindən heç bir tədbir görülmədi, çünki onlar hərbi qüvvələri öz məkrli məqsədləri üçün istifadə edirdi".

C.Osmanov vurğulayıb ki, 90-cı illərin AXC-Müsavat cütlüyünün tör-tökünüləri bu gün də antimilli şura və AXCP ətrafında birləşərək yenə də öz xəyanətlərini davam etdirirlər: "Onlar erməni lobbisindən aldıqları göstərişlər əsasında Azərbaycana qarşı qarayaxma, böhtan kampaniyası aparırlar, Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı və tarixi qələbəsinə kölgə salmağa çalışırlar".



# Sarkozi qandallandı

Paris məhkəməsi Fransanın sabiq prezidenti Nikolya Sarkozini 3 il müddətinə həbs edib. SİA-nın məlumatına görə, keçmiş prezident korrupsiyada və nüfuzundan sui-istifadə etməkdə təqsirli bilinib. Qeyd olunur ki, cəza müddətinin 2 ili şərti təyin olunub. Nikolya Sarkozi Fransa tarixində real həbs müddəti almış ilk prezident olub.

# Qarabağ erməniləri Azərbaycanda necə yaşayacaqlar?

**Moskva-Baku.Ru platformasında Andrey Şlyapnikov müəllifi və aparıcısı olduğu "Diqqət mərkəzində" analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı formasında da oxucularımıza təqdim edirik.**

Ermənistanda çevriliş cəhdi diqqət mərkəzindədir. Baş nazir Nikol Paşinyan 2-ci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətdən sonra siyasi vəziyyəti öz əlinə almağa müvəffəq oldu, lakin Baş nazirin söylədiyi bir cümlə sonrakı onun siyasi gələcəyini bir daha riskə atdı. Paşinyan ölkənin keçmiş prezidenti Serj Sarkisyanın Qarabağdakı müharibənin 4-cü günü "İskəndər" taktiki raket sistemlərindən istifadə edilməsinin vacib olduğunu bildirən açıqlamasına cavab olaraq Paşinyan Rusiya raketlərinin istifadəyə uyğun olmadığını bildirib.

Rusiya Müdafiə Nazirliyi Ermənistanın Baş naziri Nikol Paşinyanın açıqlamasını oxuyanda təəccüblənib və çaşqınlıq içində qalıb.

Rusiya MN rəsmi nümayəndəsi Konoşenko: "Əldə etdiyimiz obyektiv və etibarlı məlumatlara görə, bu tip raket sistemlərindən heç biri Qarabağdakı münaqişə zamanı istifadə edilməyib. Görünən odur ki, Paşinyan səhv məlumatlardan istifadə edib".

Konoşenko "İskəndər E" raket sisteminin Suriyada terrorçulara qarşı döyüş şəraitində dəfələrlə istifadə edildiyini xatırladıb. Bu silah dünyada öz sinifindəki ən yaxşısıdır və hər kəs tərəfindən tanınır. Ermənistan hərbçiləri də Paşinyanla razılaşmayıblar. Baş Qərargah rəisinin 1-ci müavini Tiran Xaçatryan Rusiyanın "İskəndər" əməliyyat-taktiki raket sistemlərinin təsirsizliyi ilə bağlı açıqlamaları "qeyri-ciddi" adlandırıb. Ermənistan Baş Qərargahı Baş nazirin istefası tələbini irəli sürüb. Bəyanatı Baş Qərargah rəisi Onik Qasparyan, bütün müavinləri, şöbə müdirləri və bütün böyük hərbi birləşmələrin komandirləri imzalayıblar.

Ermənistanın Baş Qərargahı: "Ermənistan silahlı qüvvələri uzun müddət mövcud hakimiyyətin orduya qarşı hücumlarına səbirlə dözdülər, lakin hər şeyin bir həddi var".

Beləliklə, Paşinyan bir cəfəng ifadəsi ilə müharibədə məğlub olduqdan sonra da ona sadiq qalan ordunun özünə qarşı çevirdi. Rusiyalı mütəxəssislər Paşinyanın özünü müdafiə üçün belə etdiyini düşünürlər.

Politoloq İqor Korotçenko: "Təsadüfən, ya da bilərəkdən Paşinyan bu açıqlamanı verdi və rəqibləri bundan istifadə etdilər. Hər halda, effektiv Rusiya silahları barədə bu cür açıqlamalar əsassızdır. Və bu ifadə həqiqətən erməni "Pinoçet"i oynamağa qərar verən bir sui-qəsdçi qrupunun hərəkətləri üçün göydəndüşmə bir fürsət oldu".

Müxalifət fürsətdən istifadə edib dərhal insanları küçələrə çıxardı. Vətənin Qurtuluşu Hərəkatının üzvləri İrəvanın Baqramyan prospektində - parlament binasının qarşısında çadırlar qurdular. Hərəkatın lideri Vazgen Manukyan Baş nazirin etiraz aksiyalarını dayandırıb danışıqlara başlama çağırışına cavab olaraq tərəfdarlarının küçədən heç yerə getməyəcəyini söylədi.

Bu yaxınlarda böyük siyasətə qayıtdığını elan edən Ermənistanın 2-ci prezidenti Robert Koçaryan da etirazları dəstəkləyib və xalqa müraciət edib: "Bu taleyüklü məqamda sizi dövlətimizin sahibləri olmağa, Silahlı Qüvvələrimizin yanında durmağa çağırırıq. Müharibəni uduzan və torpağı təslim edən səlahiyyətlilər getməlidir. Bu, ilk növbədə milli dirçəlişimiz üçün zəmanətdir".

Paşinyanın "va-bank" getməkdən başqa çarəsi yox idi. Çevriliş cəhdini elan etdi və vətəndaşları "inqilabı müdafiə etmək" üçün Respublika Meydanında toplaşmağa çağırdı. Məxməri inqilab dövründə olduğu kimi, Paşinyan özü şəxsən yürüşə rəhbərlik edirdi. Tərəfdarları qarşısında keçirilən mitinqdə Paşinyan müharibəni uduzduqdan sonra istefa etməyi düşündüyünü, amma onu baş nazir seçən insanlara görə bunu etmədiyini deyib, çünki kimin hakimiyyətdə olub-olmamasına vətəndaşlar qərar verirlər. Paşinyan bəyan etdi ki, ordu siyasi proseslərə qarışa bilməz və xalqın seçdiyi hökumətə tabe olmalıdır. Baş nazir əsgər və zabitlərə öz işlərini yerinə yetirməyi- Ermənistanın sərhədlərini qorumağı əmr edib. İndi əsas sual ordunun buna nə qədər hazır olmasıdır. Hərbçilər hakimiyyəti öz əllərinə almağa çalışacaqlarmı? Rusiyalı ekspertlər hazırda Ermənistan ordusunda bundan sonra nə edəcəklərinə dair bir fikrin olmadığına əmindirlər.

"Ordu bölmələrinin Baş Qərargah rəisini nə dərəcədə dəstəkləməyə hazır olduqları hələ bəlli deyil. Onların tankları İrəvan küçələrinə çıxarılsaydı, bu barədə nəsə demək olardı, halbuki bizdə yalnız siyasi bəyanat və Ermənistandakı böhranın kəskin bir mərhələsi var"- politoloq İqor Korotçenko deyir.

Bəlkə də dünyanın reaksiyası ordunu dayandırır. Ən böyük dövlətlərin liderləri çevriliş cəhdini dəstəkləmədilər. Erməni tərəfin təşəbbüsü ilə başlanan Nikol Paşinyanla telefon danışığında Vladimir Putin vəziyyətin qanunlar çərçivəsində həll olunaraq Ermənistanda asayişin və əmin-amanlığın qorunması lehinə danışdı. Rusiya dövlətinin başçısı hər tərəfi təmkinə çağırdı.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankaranın dünyanın hər hansı bir ölkəsində hakimiyyəti zorla ələ keçirmə cəhdlərinə qarşı olduğunu qeyd etdi. Bu, Ermənistandakı hadisələrə də aiddir. "Təməl demokratik prinsiplər budur- silahlı qüvvələr daxili siyasətə qarışmamalıdır"- o bildirib.

Azərbaycandan da reaksiya gəldi. Beynəlxalq media üçün onlayn mətbuat konfransı zamanı İlham Əliyev Ermənistanda baş verənləri ölkənin daxili işi kimi xarakterizə etdi.

"İndi Ermənistanda böhran vəziyyəti var. Onların daxili prosesləri haqqında fikir söyləmək istəməzdim. Biz digər ölkələrin daxili işlərinə heç vaxt qarışmırıq, xüsusən belə həssas məqamda. Ancaq müharibədən sonrakı nəticələr dəyişməz qalır və üçtərəfli razılaşmaya əməl olunmalıdır"- İlham Əliyev deyib.



Tərəzinin meyl edəcəyi digər həlledici amil də Ermənistan cəmiyyətindəki əhval-ruhiyyədir. Paşinyan Rusiya, Azərbaycan və Ermənistanın imzaladığı sülh müqavilələrinin qarantıdır. Paşinyan sülh gətirir və qonşuları ilə iqtisadi əməkdaşlığa hazırdır. Ancaq müxalifətdən nə gözləmək olar, hələ bilinmir. Revanşist hisslər orada çox güclüdür.

"Bütün bunlardan sabitliyə və əmin-amanlığa ehtiyacı olan kasıb erməni xalqı əziyyət çəkir. Ermənistan indi daha da ağır bir siyasi böhrana girə bilər, bu da ölkə iqtisadiyyatının sistemli defoltu ilə sona çatacaq və yüz minlərlə Ermənistan vətəndaşı dünyaya səpələnəcək"- politoloq İqor Korotçenko deyir.

Hərbi ekspert Mixail Xodarenok: "Nikol Paşinyan bir neçə dəfə belə açıqlamalar verib, dəfələrlə Rusiya silahlarını tənqid edib. Gah havadan müdafiə vasitələrindən, gah döyüş təyyarələrindən, gah da elektron mübarizə vasitələrindən razı deyil. Böyük bir siyasətçi açıqlamalar verəndə danılmaz faktlara istinad etməlidir. Məsələn, "İskəndər"in düzgün işləmədiyini söyləyirsə, bunu sübut eməli və dəlil gətirməlidir".

Paşinyan açıqlamasının ona əks-təsir göstərə biləcəyini başa düşdü və artıq vəziyyəti yumşaltmağa çalışır. Silahlı qüvvələrin islahatı üçün konsepsiya yaratmaq üçün Müdafiə nazirinin rəhbərlik etdiyi bir işçi qrupu qurulduğunu elan etdi.

"Xüsusilə vurğulamaq istəyirəm ki, bu istiqamətdə təhlükəsizlik sahəsində əsas strateji müttəfiq olan Rusiya ilə sıx əməkdaşlıq etmək niyyətindəyik"- Ermənistanın Baş naziri dedi.

Paşinyan özü Ermənistan üçün çox təhlükəli bir vəziyyət yaratdı və indi onu düzəltmək və Zaqafqaziya bölgəsində sabitliyi qorumaq üçün çox səy göstərmək lazım olacaq.

Evinizə əmin-amanlıq və firavanlıq. İrəvandakı siyasi fırtınaya Azərbaycan necə reaksiya verdi?

Ermənistandakı siyasi böhranın fonunda Azərbaycan sağlam düşüncə siyasəti nümayiş etdirir. Azərbaycan Prezidenti İlham Əliyev, Zaqafqaziya ölkələrini Qarabağ nizamlanmasından sonra əməkdaşlıq və dinc yanaşı yaşamaq üçün müsbət imkanlara diqqət yetirməyə çağırdı: "İnanıram ki, müharibədən sonra çox konstruktiv yanaşma nümayiş etdiririk. Bölgəmizin uzun illərdir gözlədiyi sülh quruldu və bu sülh uzunmüddətli olmalıdır ".

Beləliklə, Azərbaycan da Ermənistandakı iğtişaşlara və çevriliş cəhdlərinə qarşı çıxdı. Bölgədə bütün qonşu ölkələrin və beynəlxalq təşkilatların istifadə edə biləcəyi yeni imkanlar və perspektivlər yaradıldı.

İlham Əliyev: "Düşünürəm ki, hökumətlər və beynəlxalq təşkilatlar olaraq hamımızın yeni reallıqları qiymətləndirmək üçün addımlarımızı planlaşdırmalı, əməkdaşlıq və dinc yanaşı yaşamaq üçün müsbət imkanlara diqqət yetirməliyik".

İlham Əliyev bu açıqlamaları ilə erməni xalqına müəyyən bir mesaj göndərir. Bəs onların seçimi nə olacaq? Rifah və ya uçuruma qərq olmaq? Xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Haqları Şurasının 46-cı iclasının Yüksək Səviyyəli Seqmentindəki çıxışı zamanı Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli sülh sazişinin vacibliyini bildirdi və Azərbaycanın tam hüquqlu dövlətlərarası münasibətləri bərpa etmək istəyini bildirdi.

Ceyhun Bayramov: "Azərbaycan bu sənədin tam icrasına və Ermənistanla Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşması əsasında bu qanlı qarşıdurmanın yaralarının sağalmasına böyük əhəmiyyət verir. BMT-nin rəhbərlik etdiyi beynəlxalq birliyin bölgədə mehriban qonşuluq münasibətlərinin bərpasına yönəlmiş Üçtərəfli Bəyannamənin həyata keçirilməsinə dəstək verməkdə mühüm rol oynaya biləcəyinə inanırıq".

Beləliklə, Azərbaycan Ermənistana dostluq əlini uzadır və Ermənistanı bir sadə prinsipə əməl etməyə çağırır- zərər verməyin. Üçtərəfli müqavilə bölgədə sülh və rifahın qarantıdır. Beynəlxalq media ilə keçirdiyi mətbuat konfransında İlham Əliyev müqavilənin əksər maddələrinin artıq yerinə yetirildiyini söylədi.

İlham Əliyev: "Hazırda müzakirə predmeti olan bəzi məqamlar var. Ümid edirəm ki, Ermənistan daxili vəziyyətə baxmayaraq, 10 noyabr tarixli üçtərəfli razılaşma çərçivəsində öhdəliklərini yerinə yetirəcəkdir. Əks təqdirdə Ermənistan özünü daha da çətin vəziyyətə salacaq".

Mətbuat konfransında Prezident İlham Əliyev azad edilmiş ərazilərin bərpa planlarından bəhs etdi: "Füzulidə hava limanının inşası ilə bağlı işlərə artıq başlanılıb. Bu prioritet bir vəzifə olduğundan dərhal minaların təmizlənməsi ilə bağlı işlərə başladıq. Laçın və Zəngilanda da hava limanlarının inşası planlaşdırılır. Razılaşmanın icrası çərçivəsində Zəngilan hava limanı əhəmiyyətli logistik mərkəzi olacaq".

Bundan əlavə, Azərbaycan münaqişədən təsirlənən ərazilərdə yaşayan erməniləri ailəsinə qəbul etməyə hazırdır.

Ceyhun Bayramov: "Azərbaycan, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarına eyni hüquq və azadlıqları təmin edərək, münaqişədən təsirlənmiş ərazilərdə yaşayan erməni mənşəli vətəndaşlarını siyasi, sosial və iqtisadi məkana inteqrasiya etmək əzmindədir. Azərbaycan Respublikasının Konstitusiyası buna möhkəm hüquqi əsas verir".

Bu, Azərbaycanın nəcib və vaxtında etdiyi bir hərəkətdir. Ermənistanda siyasi böhran alovlandıqda, Azərbaycan ocağa yanacaq əlavə etmir, əksinə sülh və firavanlığın xeyrinə sağlam düşüncəyə çağırır.

***Tərcümə: Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

ANALİZ

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**2 mart**


**QARABAĞ AZƏRBAYCANDIR!**

## Güləşçilərimiz Kiyev turnirini 6 medalla başa vurublar



***Ukraynada güləş üzrə Kiyev turniri başa çatıb. AZƏRTAC xəbər verir ki, sərbəst güləşçimiz Əhmədnəbi Qvarzatilov (61 kq) ilk görüşdə Macarıstan idmançısına vaxtından əvvəl qalib gəlib. Yığmamızın təcrübəli üzvü ukraynalı rəqibinə də eyni aqibəti yaşadaraq yarımfinala yüksəlib. Qırğızıstan güləşçisindən də güclü olan Ə.Qvarzatilov finala vəsiqə qazanıb. Fevralın 28-də baş tutan sonuncu qarşılaşmada Ukraynanın daha bir təmsilçisi ilə üz-üzə gələn güləşçimiz inamlı qələbə ilə yığmamıza ikinci qızıl medalı qazandırıb.***

Böyüklər arasında debüt edən Cəbrayıl Hacıyev (70 kq) əvvəlcə moldovalı rəqibini üstələyib. Gənc güləşçimiz daha sonra yerli pəhləvan üzərində əzmkar qələbə qazanaraq adını yarımfinala yazdırıb. C.Hacıyev Qırğızıstan təmsilçisinə də gücünü göstərərək finala adlayıb. Həlledici görüşdə Özbəkistanı təmsil edən İlyas Bekbulatovla qarşılaşan C.Hacıyev güclü rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Millimizin üzvü Vahid Qalayev (125 kq) startda təcrübəli Rusiya güləşçisini məyus edib. Ancaq daha sonra polşalı həmkarına uduzub. Rəqib finala yüksəldiyi üçün V.Qalayev təsəlliverici görüşə çıxıb və türkiyəli idmançı üzərində əzmkar qələbəyə sevinib. Güləşçimiz bürünc medal uğrunda Moldova təmsilçisi ilə qarşılaşıb və onun da öhdəsindən gəlməklə üçüncü yeri tutub. Beləliklə, sərbəst güləş yığmamız Kiyev turnirini 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın millimiz isə 1 bürünc medalla başa vurub. Turnirdə görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakimlər Vaqif Zeynallı və Həbib Nurulu təmsil ediblər.

## "Liverpul" tarixində 7000-ci qolunu vurdu!



**Futbol üzrə İngiltərə Premyer Liqasının 2-cı turunda "Şeffild Yunayted"lə matç "Liverpul" üçün əlamətdar olub. Qol.az "Opta"ya istinadən xəbər verir ki, görüşdə 2:0 hesablı qələbə qazanan komandanın klub tarixində yerli çempionatakı 7000-ci qolu vurulub.**

"Şeffild Yunayted"in futbolçusu Kin Brayan avtoqola imza atıb. O, 64-cü dəqiqədə öz qapısına qol vurub. Bu isə "mersisaydlılar"ın tarixinə Premyer Liqada vurulan 7000-ci qol kimi düşüb. Qeyd edək ki, "Liverpul" hazırda Premyer Liqanın turnir cədvəlində 43 xalla 6-cıdır.

## Son 10 ilin ən pis "Yuventus"u

"Yuventus" son 10 il ərzində ən pis dövrünü keçirir. Goal.com xəbər verir ki, son 9 ilin dəyişməyən



çempionu olan Turin təmsilçisi bu mövsüm cəmi 46 xal toplayıb. Andrea Pirlonun çalışdırdığı komanda lider "İnter"dən düz 10 xal geri qalır. Bu isə geridə qalan 10 ilin ən pis nəticəsidir. Həmçinin "Yuventus" çıxdığı 23 matçdan cəmi 13-də qalib gəlib. Komanda ötən mövsüm bu müddət ərzində Maurisyo Sarrinin baş məşqçiliyi altında 54 xal toplamışdı və lider idi. "Yuventus"un son 10 ildəki ən yaxşı nəticəsi isə Massimiliano Alleqrinin dövründə qeydə alınıb. "Qoca sinyora" 23 oyundan sonra 63 xal toplamışdı və ən yaxın izləyicisi "Napoli"ni 11 xal qabaqlayırdı.

## Kasıb necə varlana bilər? - Yəhudilərin varlanmaq SİRRİ



Bu gün bütün dünya xalqları sözün əsl mənasında yəhudilərə həsədlə yanaşır. Çünki, onlar yanaşdıqları hər işdə uğur qazanıb, inamla irəliyə gedirlər. "Kasıb yəhudi" onların ən qısa lətifəsidir. Çünki yəhudilər düzgün üsullardan istifadə edərək varlanmağın bütün yollarına bələddirlər.

Yəhudilərin varlanmaq üçün 6 qızıl məsləhətini təqdim edirik:

1. Maddi durumunu yaxşılaşdırmaq istəməyən insan yoxdur. Güclü iradə və iddialı olmaq yəhudilərin əsas sirridir. Onlar heç vaxt ruhdan düşmür, məqsədlərinə çatmaq üçün, durmadan çalışırlar.
2. Yəhudilər heç vaxt sevmədikləri işlə məşğul olmurlar. Onlar düşünürlər ki, insan yalnız sevdiyi işdən zövq alıb, işləmək həvəsini artıra bilər. Sevimli iş uğurlu gələcəyin zəmanətidir.
3. Pulu artırmaq üçün daha yığımcıl olmaq lazımdır. Hər maaşınızın ən az 10%-ni kənara qoyub, varlığını unudun. Qarşınıza məqsəd qoyun ki, bu pulu müəyyən məbləğə çatdırıb, xırda biznes quracaqsınız.
4. Özünüzdə yatırım yəni investisiya qoymaq mədəniyyətini formalaşdırın. İnternetə daxil olub, xırda investisiyalardan böyük pullar qazanmağın yollarını öyrənin. Beləliklə əlinizdə olan pulları daha böyük kapitala çevirin.
5. Öz xırda maliyyə planınızı tərtib edin. Bu plan aylıq hətta gündəlik qazancınızı yalnız lazımi əşyalara xərcləməyə kömək edəcək. Düşünülməmiş xərclərinizin qarşısını alacaq.
6. Biznes də, digər sahələr kimi riskli işdir. Öz instinktinizə və intuisiyanıza güvənin. Qəlbinizin səsini dinləməyi bacarın. Çünki insan orqanizmi təhlükəni və inamsızlığı çox vaxt düzgün hiss edir. Unutmayın ki acı təcrübə özü də bizə böyük dərs verir. Odur ki, instinktinizi inkişaf etdirib, mükəmməlləşdirməyin zamanıdır.

Yəhudilər düşünürlər ki, bu şərtlərə əməl edib, varlanmamaq mümkün deyil. Özünüzə güvənin. Mütləq hər şey könlünüzcə olacaq. (publika.az)

## Yasamalda soyğunçuluq edən keçmiş məhkum yaxalanıb

Yasamal rayonunda soyğunçuluq edən keçmiş məhkum yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Yasamal Rayon Polis İdarəsinin 26-cı polis bölməsinə müraciət edən Bakı şəhər sakini M.İmanov fevralın 23-də G.Əsədov küçəsində bir nəfərin onun "Mercedes" markalı avtomobilindən mobil telefonunu açıq talama yolu ilə apardığını bildirib. Soyğunçuluğu törətməkdə şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş R.Abdullayev polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktlarla bağlı rayon polis şöbəsində araşdırma aparılır.



## "BMW" avtomobili yolu keçən piyadanı vurub öldürdü



Sumqayıtda baş verən yol-nəqliyyat hadisəsi nəticəsində piyada həlak olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 11-ci mikrorayon ərazisində yolu keçən B.Əliyev şəhər sakini O.Məmmədovun idarə etdiyi "BMW" markalı avtomobillə vurulub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Sumqayıt Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**